# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 30 (3354) Şənbə / 20-29 mart 2021-ci il Qiyməti 40 qəpik


# Xüsusi karantin rejiminin müddəti uzadıldı

***Azərbaycan ərazisində xüsusi karantin rejiminin müddəti uzadılıb. Nazirlər Kabinetinin qərarına əsasən, koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2021-ci il 1 iyun saat 06:00-dək uzadılıb.***

***Qərara əsasən aprel və may aylarında ictimai nəqliyyatın hərəkəti aşağıdakı qaydada tənzimlənəcək:***

***- 2021-ci il 3 aprel saat 00:00-dan 5 aprel saat 06:00-dək;***

***- 10 aprel saat 00:00-dan 12 aprel saat 06:00-dək;***

***- 17 aprel saat 00:00-dan 19 aprel saat 06:00-dək;***

***- 24 aprel saat 00:00-dan 26 aprel saat 06:00-dək;***

***- 1 may saat 00:00-dan 3 may saat 06:00-dək;***

***- 8 may saat 00:00-dan 10 may saat 06:00-dək;***

***- 15 may saat 00:00-dan 17 may saat 06:00-dək;***

***- 22 may saat 00:00-dan 24 may saat 06:00-dək;***

***- 29 may saat 00:00-dan 31 may saat 06:00-dək Azərbaycan Respublikası ərazisində ictimai nəqliyyatın hərəkəti dayandırılır.***

***Ölkə ərazisində həmçinin 20 mart saat 00:00-dan 29 mart saat 06:00-dək ictimai nəqliyyatın hərəkəti dayandırılacaq.***



MÜSAHİB

## "Ağdamı yerində görmədikdə çox ağır hisslər keçirdik"



**Fəzail Ağamalı,**
Ana Vətən Partiyasının sədri, millət vəkili

***Xəbər verildiyi kimi, Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən, Prezident Administrasiyasının təşkilatçılığı ilə martın 17-də 50-yə yaxın siyasi partiya rəhbəri və bir sıra politoloq işğaldan azad olunmuş Ağdam rayonuna səfər edib. Həmin diqqətəlayiq ziyarətin iştirakçılarından biri olan Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı "Həftə içi" əməkdaşı ilə söhbətində səfər təəssüratları ilə yanaşı, erməni məsələsinə baxışlarından, işğaldan azad yurdlarımıza Böyük Qayıdışla bağlı ümidlərindən və s. bəhs edib.***

***Laçın bizdədirsə, əminəm ki, yaxın zamanlarda Zəngəzur da bizim olacaq...***

Səh. 3

MÜSAHİB



**Əvəz Zeynallı,**
Xural TV-nin baş redaktoru

■ Qəzetlər əvvəlki şöhrətinə qayıtmalıdır, yazılı media öz axarına düşməlidir.

■ Medianın imkanları, iqtisadi əsasları qorunmalıdır.

■ Media, jurnalistlər çox ciddi imtiyazlardan da istifadə etməlidir.

Səh. 6



**Şahmar Mövsümov,**
**Prezidentin köməkçisi**

***Biz artıq bir ildən çoxdur ki, COVİD-19 pandemiyasını yaşayırıq. Pandemiya bütün ölkələrə dalğavari təsir edib.***

Bu dalğalar müxtəlif ölkələrdə müxtəlif vaxtlarda baş verib. Bir çox ölkələr hazırda qapanmalara gedirlər. Qapanmalar dalğanın sürətini azaldır və ölkələrə imkan yaradır ki, səhiyyə sisteminn dayanıqlılığını yarada bilsin. Yumşalmalar yoluxmaların sayının artmasına səbəb olub. Gündəlik yoluxmalar ümumi testlərin sayında payını artırır. Say artdıqca ölənlərin sayı da artır. Azərbaycan da yumşalmalara getmişdi. Yumşalmalar yoluxma sayının artmasına səbəb olub. Bu gözlənilən idi.

Bayram günlərində ictimai nəqliyyatın hərəkətinə məhdudiyyət qoyulacaq. Bundan başqa hər hansı məhdudiyyət tətbiq edilməyəcək. Bu qərarın verilməsinə əsas səbəb yoluxmaların sayının artmasıdır. Müəyyən ciddi narahatlıqlar var. Britaniya ştammının da Azərbaycanda aşkar olunması bu narahatlığı artırır. Eyni zamanda son bir il ərzində Azərbaycanda səhiyyə sisteminin imkanları artırılıb.

Bütün dünyada bu prosesə cəlb olunan texnologiyalar, tibbi avadanlıq alınıb. Eyni zamanda kütləvi vaksinasiya prosesi aparılır. Xəstəxanaların imkanlarına qarşı 1500-1600 xəstəmiz var. Bu, bizə imkan verir ki, ciddi sərtləşməyə getməyək. Ancaq xəstəxanalarda doluluq faizi artarsa, xüsusi sərtləşdirilmiş rejimə, ciddi məhdudiyyətlərə getmək məcburiyyətində qalacağıq.

Növbəti yumşalma zamanı metronun açılması gündəmə gələ bilər. İctimai nəqliyyatı biz ya tamamilə bağlamalı, ya da açmalıyıq. Metronun açılması hazırda aktivliyin artmasına gətirib çıxaracaq. Metronun bağlanması qərarı verildikdə əsas məqsədimiz aktivliyin aşağı salınması idi. Biz də buna nail olmuşuq. Metronun bağlanması burada xüsusi rol oynayır. Metro açıq olanda aktivlik daha çox olur. Metro açıq olanda daha çox insan daha çox məkanda bir-biri ilə təmasda olur və yoluxma artırdı. Toy və ad günü mərasimlərinin keçirilməsi qadağandır. Hazırkı yoluxma sayı ilə kütləvi tədbirlərin keçirilməsinə icazə verilə bilməz. Hazırda ad günü keçirmək qadağandır. Kimsə bunu edirsə, qaydaları pozur.



**Yaqut Qarayeva,**
**TƏBİB-in departament müdiri**

***Bizim üçün ən önəmlisi ümumi testlərin sayı deyil. Testlərin içərisində yoluxanların sayıdır. Aktiv xəstələrə həm evdə, həm də xəstəxanalarda müalicə alanlar daxildir. Dekabrın sonunda sərt karantin rejiminə keçəndən sonra yoluxma sayında kəskin azalma müşahidə edilirdi.***

Mərhələli şəkildə karantindən çıxmağa başlayanda tədricən yoluxmaların sayında artım müşahidə edildi. Bununla bərabər ən çox yoluxma faizi Bakıdadır. 52,9 % yoluxmalar Bakıdadır. Abşeron, Sumqayıt, Gəncə-Qazax bölgəsində il ərzində olduğu kimi yoluxmalar çox olaraq qalır. Bakı şəhərinin Xətai, Yasamal, Binəqədi rayonlarında yoluxmaların faizi yüksəkdir. Dünyada hazırda SARS-COV-2 virusunun 3 variantı müşahidə edilir. Bunlardan biri də Britaniya ştammıdır. Virusların hamısında mutasiyalar baş verir. Qrip xəstəliyinə qarşı hər il yeni peyvənd istehsal olunur. Bu da qrip virusunda cürbəcür mutasiyaların baş verməsilə bağlıdır. Bu, normaldır. Bizi maraqlandıran baş verən mutasiyanın xəstəliyin gedişinə və yoluxmaya təsiridir. Britaniya ştammı daha əvvəlki mutasiyalardan fərqli olaraq, daha sürətlə yayılır. Bütün dünyada bu ştammın yayılması çox sürətlə baş verir. Ona görə də bu ştamm aşkarlanan ölkələrdə bəzi məhdudiyyətlərə gedilir. Bundan başqa, Braziliyada və Cənubi Afrikada da mutasiyalar aşkarlanıb. Onların da xəstəliyin gedişinə təsiri araşdırılır.

Artıq bir ildən çoxdur ki, COVID-19 pandemiyası dünya üçün yeni qaydalar diktə edir, ölkələr, insanlar da koronavirusun və sərt karantin rejiminin tələb etdiyi qaydalarla yaşamağa alışmağa çalşırlar.

Lakin bütün qaydaların tətbiq edilməsinə baxmayaraq müəyyən yumşalmalardan sonra bəzi ölkələr bu virus qarşısında yenidən aciz durumda qalıb. Hazırda infeksiyanın yenidən güclənməsi, yoluxma hallarının rekord həddə çatması da məhz yumşalmalarla bağlıdır. Bunu nəzərə alan əksər ölkələr yenidən qapanma ilə bağlı qərarlar qəbul etmək məcburiyyətində qalıblar.

### Bəzi ölkələr karantin rejimini sərtləşdirirlər

**Məsələn, Norveçdə koronavirusa yoluxanların sayındakı artım yenidən antirekord müəyyənləşdirib. Bu barədə krallığının səhiyyə naziri Bent Höye bildirib: "Biz üçüncü koronavirus dalğası ilə üz-üzəyik, amma inanıram ki, bunun öhdəsindən də gələ biləcəyik. Koronavirusun ən yoluxucu ştammının xüsusilə Osloda yoluxma sayında kəskin artıma gətirib çıxardığını görürük. Buna görə də hazırda Oslo, Viken və bəzi bölgələrdə tətbiq edilən sərt tədbirləri bütün ölkə üzrə tətbiq etmək lazımdır".**

Bolqarıstanda isə koronavirus pandemiyası ilə əlaqədar 10 gün müddətinə ümummilli karantin rejiminin tətbiqi ilə bağlı artıq qərar qəbul olunub. Bunu ölkənin səhiyyə naziri Kostadin Angelov deyib.Karantin martın 22-dən etibarən qüvvəyə minəcək. Nazir bildirib ki, koronavirusdan ölüm hallarına görə Bolqarıstan Avropa ölkələri arasınsda dördüncü yeri tutur. Qeyd edək ki, bu günədək ölkədə 290 mindən çox şəxs koronavirusa yoluxub, 11 715 nəfər ölüb.

Səh. 5

GÜNÜN FOTOSU...



Zod qızıl yatağını qoruyan əsgərlərimiz...

***"Həftə içi" qəzetinin kollektivi Azərbaycan xalqını Novruz Bayramı münasibəti ilə təbrik edir. Bu Novruz süfrələriniz bərəkətli, arzularınız gerçək olsun. Qələbə daima bizimlədir.***

KARİKATURA




20 mart Ümumdünya Xoşbəxtlər Günüdür...

## Ölkəmizdə yeni mədəniyyət strategiyası həyata keçirilir

Qənirə Paşayeva,
Milli Məclisin Mədəniyyət Komitəsinin sədri, millət vəkili

Ən vacib məsələlərdən biri istedadlı yaradıcı gənclərə dəstəyin daha da artmasıdır.

Səh. 5

STATİSTİKA



**■ Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi tərəfindən Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Tərtər rayonları və Şuşa şəhəri ərazisində mina və partlamamış hərbi sursatların (PHS) təmizlənməsi əməliyyatları aparılır.**

2020-ci il 27 sentyabr tarixindən etibarən aparılmış minatəmizləmə əməliyyatları zamanı 16 586 032 kv.m (1,586 ha) ərazi yoxlanılıb, 9 584 ədəd piyada və tank əleyhinə minalar, 7 081 ədəd partlamamış hərbi sursatlar aşkar olunaraq zərərsizləşdirilib.



Səh. 2

# Bayden-Putin toqquşması

## XƏBƏR LENTİ

### Əli Əsədov qazaxıstanlı həmkarı ilə danışıb



**Qazaxıstan tərəfinin təşəbbüsü ilə Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ilə Baş nazir Askar Mamin arasında telefon danışığı olub.**

Nazirlər Kabinetindən hafta.az-a verilən məlumata görə, söhbət zamanı Askar Mamin həmkarını Novruz bayramı münasibətilə təbrik edib, Qazaxıstan və Azərbaycan xalqlarının uzunəsrlik dostluğunun möhkəm təməllərə söykəndiyni deyib. Azərbaycanın uğurları xüsusi vurğulanıb. Söhbət zamanı Azərbaycan ilə Qazaxıstan arasında münasibətlərin iqtisadi və ticarət aspektlərinə dair bir sıra məsələlər müzakirə olunub.

### Azərbaycan Prezidentinin səfərləri Ermənistan XİN-in şərh mövzusu ola bilməz

*"Azərbaycan Respublikasının Prezidentinin Azərbaycan ərazilərinə səfərlər etməsi Ermənistan Xarici İşlər Nazirliyinin şərh mövzusu ola bilməz".*



Bu barədə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin Ermənistan Xarici İşlər Nazirliyinin 18 mart 2021-ci il tarixli bəyanatına dair şərhində bildirilib.

"Ermənistan XİN-i mövcud olmayan dağıntılar barədə danışmadan öncə, 30 ilə yaxın müddətdə Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan tərəfindən həyata keçirilən tarixi, mədəni və dini irsin talan edilməsi və "təmizləmə" siyasəti, o cümlədən yüzlərlə abidələrin yerlə yeksan edilməsi, 63 məscidin tamamilə yer üzündən silinməsini unutmamalıdır. Ermənistan tərəfi hələ də anlamır ki, bu kimi ritorikadan uzaqlaşmaq və imzalanmış üçtərəfli bəyanatların icrasına köklənmək lazımdır. Revanşist və təhlükəli fikirlərlə öz əhalisini zəhərləmək Ermənistana yaxşı heç nə vəd etmir", - deyə qeyd olunub.

### ABŞ səfiri Azərbaycan xalqını təbrik edib



**ABŞ-ın Azərbaycandakı fövqəladə və səlahiyyətli Səfiri Li Litzenberqer Novruz Bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib. Səfir bu barədə videomüraciətində bildirib.**

Təbrikdə deyilir: "ABŞ-ın Azərbaycandakı səfirliyi və ABŞ xalqı adından Azərbaycan xalqına sağlam və xoşbəxt Novruz diləyirəm.

2019-cu ilin mart ayında bütün ölkənin Novruz tətilinə hazırlaşdığı bir dönəmdə mənə Azərbaycana gəlmək qismət oldu. Ölkəyə gəldiyimdə əsl bayram əhval-ruhiyyəsi ilə qarşılaşdım. Şənliyə hazırlaşmış ailələr, göz qamaşdıran rənglər, hər yerdə, həmçinin, səfirlikdə qalanmış tonqallar və dünyada daddığım ən dadlı yeməklərlə tanış oldum.

Bu mənim üçün Azərbaycan mədəniyyəti və cəmiyyətinə həqiqətən xüsusi bir giriş idi. Bakıda olduğum ilk ay ərzində mənə göstərilən qonaqpərvərliyi heç vaxt unutmayacağam. Novruz dünyada yüz milyonlarla insan üçün ailələrin və icmaların bir araya gələrək yeni ilə başlamalarını qeyd etdikləri bir bayramdır. ABŞ-da son zamanlarda Azərbaycandan və bölgədəki digər ölkələrdən gələn immiqrantlar sayəsində Novruz bayramı müxtəlifliyi ilə seçilən mədəni təqvimimizə xoş bir əlavə olub. COVİD-19 bayramları genişmiqyaslı qeyd etməyi çətinləşdirsə də, səmimi qəlbdən ümid edirəm ki, hamınız təhlükəsiz və sağlam bir bayram keçirəcəksiniz. Və gələn il hamımız bayramı birlikdə qeyd edəcəyik".

## Böhran

# Bayden-Putin toqquşması

***Bayden-Putin qarşıdurmasına dünya liderləri və amerikalı, rusiyalı siyasətçilərin, ekspertlərin yanaşmaları da maraq doğurur. Kimisi Ağ ev rəhbərini, kimisi Kreml sahibini haqlı sayır. Hafta.az onlardan bəzilərini sizlərə də təqdim edir.***

**Dünyanın iki böyük nüvə dövləti olan Rusiya ilə ABŞ arasında münasibətlər yenidən gərginləşib. Budəfəki gərginlik heç də əvvəlkilərə bənzəmir. Hələ prezident seçilməmişdən öncə əsas hədəfinin Rusiya olacağını açıqlayan ABŞ Prezidenti Co Bayden bir neçə gün əvvəl Kreml sahibinin ünvanına çox ağır ittihamlar səsləndirməklə gündəmə gəldi. Bununla da Vaşinqton və Moskva arasında növbəti siyasi qarşıdurmanın əsası qoyuldu.**

Öncə hadisələrin qısa xülasəsinə nəzər yetirək.

■ **ABŞ Prezidenti Co Bayden "ABC Nyus" kanalına müsahibəsində rusiyalı həmkarı Vladimir Putini "qatil" hesab etdiyini bildirib.** Bayden jurnalistin "Putini qatil sayırsınızmı?" sualına cavab olaraq deyib: "Bəli, elə hesab edirəm". ABŞ Prezidenti Rusiya dövlət başçısı Vladimir Putinin pisniyyətli hərəkətlərinə görə "cavab verəcəyini" söyləyib.

■ **Rusiya Prezidenti Vladimir Putinin ABŞ Prezidenti Cozef Baydenin onu "qatil" adlandırmasına cavabı özünü çox gözlətməyib.** Putin Baydenə cansağlığı arzuladığını bildirib. Rusiya prezidenti deyib ki, başqa ölkə və şəxsi dəyərləndirərkən, güzgüyə baxmaq lazımdır. Prezident ABŞ-ın istibleşmentində çoxlu normal insanın olduğunu və Rusiyanın da onlara söykənəyəcəyini bildirib. O, Baydenin sözlərinə cavab olaraq deyib: "İnsan özünə aid edilən sözü başqasına yönəldir".

Rusiya Prezidenti Vladimir Putin ABŞ Prezidenti Co Baydeni canlı yayımda müzakirə aparmağa çağırıb. Bu barədə Vladimir Putin "Rusiya 24" kanalının efirində deyib. "Mən indi bu haqda fikirləşirdim. Ötən dəfə telefon danışığı Prezident Baydenin təşəbbüsü ilə aparılmışdı. Mən Prezident Baydenə müzakirəmizi davam etdirməyi təklif



**Elxan Şahinoğlu,**
politoloq

edirəm, bu, açıq canlı yayımda olmalıdır. Mənə elə gəlir ki, bu, Rusiya və ABŞ xalqları, o cümlədən bir çox ölkələr üçün maraqlı olar", - Putin bildirib. Rusiya prezidenti Baydenlə bazar ertəsi və ya cümə günü danışmağa hazır olduğunu deyib.

■ **Məlum olaylardan sonra, Rusiyanın Vaşinqtondakı səfiri Anatoli Antonov ABŞ-Rusiya münasibətlərinin analizi üçün Moskvaya məsləhətləşməyə çağırılıb.** Bu barədə Rusiya Xarici İşlər Nazirliyinin rəsmisi Mariya Zaxarova məlumat verib. "Moskva Vaşinqtonla münasibətlərin pisləşməsinin qarşısını almaqda maraqlıdır", - Zaxarova bildirib. Rəsmi Vaşinqton isə Moskvanın pisləşən ikitərəfli münasibətlərlə bağlı məsləhətləşmələr aparmaq üçün ABŞ-dakı səfirini geri çağırmasına sakit reaksiya verir.



### Ağ ev Kremlə qarşı...

■ **Ağ evin mətbuat katibi Cen Psaki isə Moskvanın səfirini geri çağırması ilə bağlı suala Bayden administrasiyasının Rusiya ilə münasibətlərində əvvəlki rəhbərlikdən fərqli bir yanaşma aparacağını deyib.**

"Biz narahatlığımız olan yerlərdə səmimi olacağıq və sözümüzü birbaşa deyəcəyik" - deyə, o bildirib.

ABŞ-ın Rusiyaya qarşı demarşlarının kökündə dayanan məsələyə gəldikdə isə, Vaşinqtonun kəşfiyyat rəsmilərinin təhqiqat nəticələri Rusiya və İranın bir sıra başqa ölkə və qruplarla birlikdə 2020-ci ilin noyabr ayında keçirilən prezident seçkisinin nəticəsinə təsir göstərməyə çalışdığını göstərir. Hesabatda həmçinin qeyd olunur ki, bir sıra yüksəkvəzifəli rəsmilərin xəbərdarlıqlarına baxmayaraq, Çin seçkiyə müdaxilə etməməyə qərar verib.

■ **Milli Kəşfiyyat İdarəsinin yaydığı məxfiliyi aradan qaldırılmış hesabat ABŞ kəşfiyyat icmasının Co Baydenin sabiq prezident Donald Trampa qalib gəldiyi seçkiyə xarici müdaxilə ilə bağlı son hesabatıdır.** Hesabat ilk olaraq yanvar ayında hazırlanıb və məxfi formada Tramp administrasiyasına təqdim olunub. Hesabatın məxfi olmayan versiyası qanuna uyğun olaraq amerikalı seçicilərə təhlükələr və onların Amerika demokratiyasına təsiri ilə bağlı ümumi məlumat verir.

Hesabatdakı məlumatlara əsasən, Rusiyanın 2020-ci il ABŞ prezident seçkisi ilə bağlı səyləri 2016-cı ildən fərqli idi. O zaman Rusiyanın kiber oyunçuları ABŞ-ın seçki infrastrukturuna çıxış əldə etməyə çalışırdı. Bu dəfə isə Putin "Prezident Baydenin namizədliyini və Demokrat Partiyasını ləkələmək məqsədilə təsir əməliyyatlarına" göstəriş vermişdi, eyni zamanda isə Trampa dəstək irəli sürmüşdü, hesabatda bildirilir.

"Budəfəki seçkidə Moskvanın strategiyasının əsas elementi Prezident Baydenin əleyhinə əsassız və ya yanıldıcı ittihamlar irəli sürmək üçün Rusiya kəşfiyyatı ilə əlaqəsi olan vasitəçilərdən istifadə etmək idi", - hesabatda qeyd olunur.

■ **Politoloq Elxan Şahinoğlunun sözlərinə görə, ABŞ Prezidenti Co Bayden Vladimir Putini düşməni elan etdi. Ona görə də Putinin Baydenlə düşmənçiliyi davam etdirməkdən başqa alternativi yoxdur.** O bildirib ki, Baydenin Putini qatil adlandırması sadə bir hadisə deyil: "ABŞ Prezidenti Putini qatil adlandıraraq, əslində Rusiyaya qarşı növbəti sanksiyaların olacağı mesajını vermiş oldu. ABŞ rəhbərinin Rusiyanın lideri haqda "qatil" ifadəsini işlətməsi istər-istəməz iki ölkə arasında gərginliyin yüksələcəyindən xəbər verir.

Putinin buna cavabı da gecikmədi. Kreml sahibi həmişəki soyuqqanlılığını qoruyaraq, Baydenə güzgüyə baxmağı məsləhət gördü. Daha dəqiq desək, Kreml sahibi Ağ ev sahibinə, Yaponiyaya atdıqları atom silahından və yüz minlərlə günahsız insanın qətlindən tutmuş, qaradərili vətəndaşlara olan münasibətə qədər Amerikanın yaxın tarixinin bir çox qara səhifəsini xatırladdı.

Etiraf edim ki, Putinin xarici və təhlükəsizlik siyasətinin sərt tənqidçilərindənəm. Putinin Baydenə verdiyi cavabı mükəmməl hesab edirəm. Putin mahir siyasətçi və peşəkar kəşfiyyatçıdır. O, komandasına Amerika əleyhinə çalışmalara davam etməyi əmr verəcək".

Qeyd edək ki, iki ölkə arasındakı gərginlik Azərbaycanın xarici siyasət kursu və milli maraqları baxımından da əhəmiyyətli və həssas bir məqamdır. ABŞ bir çox məsələlərdə, xüsusilə də energetika layihələrinin həyata keçirilməsində Azərbaycanın əsas siyasi tərəfdaşı olub. Rusiya isə hazırda Dağlıq Qarabağ bölgəsində sülhməramlı missiyanı yerinə yetirir.



**Rəcəb Tayyib Ərdoğan, Türkiyə Prezidenti**

Baydenin sözləri dövlət başçısına yaraşmır. Bu "qəbul ediləcək və udulacaq" bəyanat deyil. Fikrimcə, cənab Putin çox ağıllı incə cavab verməkdə lazım olanı etdi.



**Vyaçeslav Volodin, Rusiya Dumasının spikeri**

ABŞ Prezidenti Cozef Baydenin son bəyanatı gücsüzlükdən doğan isterikadır. Bayden özünün bəyanatı ilə ölkəmizin vətəndaşlarını təhqir edib. Putin bizim prezidentdir. Putinə hücum - Rusiyaya hücumdur.



**Jozep Borrell, Avropa Birliyinin ali nümayəndəsi**

Rusiyada siyasətçilər və jurnalistlər də daxil olmaqla, fiqurantlarla bağlı uzun qətl siyahısı var. Aleksey Navalnı olayı ilə bağlı isə AB sanksiya tətbiq edib. Rusiya hakimiyyəti Ukraynada hüquqazidd əməllər törədib və qonşu ölkələrdə konfliktlərdə açıq-aşkar rol oynayır. Rusiya prezidenti olanlara görə məsuliyyət daşıyır.



**Cen Psaki, ABŞ prezidentinin mətbuat katibi**

Biz Rusiya hakimiyyətinin seçkilərimizə müdaxilə etməsinə, hərbçilərimizin öldürülməsinə mükafat təyin etməsinə, ölkəmizə qarşı zərərli fəaliyyət göstərmələrinə dözə bilmərik. Prezident açıq və birbaşa olacaq. O, deyilməsi lazım gələn sözləri yumşaltmayacaq.



**Sergey Mironov, "Ədalətli Rusiya"nın lideri**

Moskvaya Rusiyanın dövlət başçısını təhqir edən bir ölkə ilə diplomatik münasibətlər lazım deyil. Görünür Bayden üçün ölkəsinin gələcəyi, Rusiya-Amerika münasibətləri ilə nələrin olacağı maraqlı deyil. Biz öz milli maraqlarımızdan çıxış etməliyik. Rusiya səfirini geri çağırmaqla doğru addım atıb. Adətən belə məsləhətləşmələrdən sonra diplomatik münasibətlər dondurulur.

*Azad Əliyev*

## Gömrük orqanlarının gələcək fəaliyyətinin prioritetləri müzakirə edilib

***Martın 18-də Ümumdünya Gömrük Təşkilatının (ÜGT) Baş katibi və şura sədri, eyni zamanda şuranın sədr müavinlərinin iştirakı ilə onlayn formatda görüş keçirilib. Dövlət Gömrük Komitəsindən hafta.az-a verilən məlumata görə, görüşdə Komitə sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev ÜGT-nin Avropa Regionu üzrə sədr müavini qismində iştirak edib.***




Görüş ÜGT-nin Siyasi Komissiyasının və Şurasının iclaslarının nəticələrinə əsasən həyata keçirilən fəaliyyətlərin davam etdirilməsi üçün növbəti tədbirlərin planlaşdırılması, xüsusilə də iş metodlarının və prioritetlərin müəyyənləşdirilməsi məqsədilə keçirilib. İclasda çıxış edən ÜGT-nin Baş katibi Kunio Mikuriya COVİD-19 pandemiyasının dünyada yaratdığı mürəkkəb şəraitdən danışıb, pandemiya zamanı gömrük orqanlarının oynadığı əhəmiyyətli rolun fonunda fəaliyyətlərin fasiləsizliyinin təmin etdirilməsi məsələlərinə diqqət çəkib, gömrük orqanlarının gələcək fəaliyyətinin prioritetləri barədə fikirlərini bölüşüb. Bildirilib ki, ÜGT-nin müvafiq strukturları fəaliyyətlərini virtual formatda həyata keçirir, prioritetlər də mövcud fəaliyyətə uyğunlaşdırılır. Baş katib COVİD-19 pandemiyası ilə bağlı vaksinlərin daşınması və təhlükəsizliyi məsələlərinin xüsusi əhəmiyyət daşıdığını bildirib. ÜGT-nin Şura sədri Əhməd Əl Xəlifə çıxış edərək müzakirələrin səmərəli keçəcəyinə əminliyini bildirib, pandemiyanın yaratdığı çətinliklərdən, fəaliyyətin pandemiyaya uyğunlaşdırılmasından, təşkilatın maliyyələşməsi məsələlərindən danışıb. O da qeyd olunub ki, pandemiya şəraitində onlayn ticarətin həcmi artıb və buda gömrük orqanlarının iş yükünü artıran amillərdəndir.

Görüşdə çıxış edən digər iştirakçılar pandemiyanın yaratdığı çətin şəraitdə gömrük orqanlarının fəaliyyəti ilə bağlı fikirlərini bölüşüblər. Tədbirdə çıxış edən Dövlət Gömrük Komitəsinin sədri, ÜGT-nin Avropa Regionu üzrə sədr müavini Səfər Mehdiyev gələcək fəaliyyətin səmərəli şəkildə qurulması, pandemiyanın yaratdığı çətinliklərə uyğunlaşdırılması istiqamətində fikirlərini dilə gətirib. Komitə sədri hazırda Avropa regionunda peyvəndləmə prosesinin sürətlə həyata keçirildiyini, Azərbaycanda da bu istiqamətdə xüsusi tədbirlərin reallaşdırıldığını bildirib.

Görüşdə, həmçinin ÜGT-nin 2021/2022-ci illər üçün iclasların təqvimi, prioritetlərin müəyyən edilməsi və iş metodları barədə məsələlər də müzakirə edilib.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

## Müsahib

# "Ağdamı yerində görmədikdə çox ağır hisslər keçirdik"

***Xəbər verildiyi kimi, Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən, Prezident Administrasiyasının təşkilatçılığı ilə martın 17-də 50-yə yaxın siyasi partiya rəhbəri və bir sıra politoloq işğaldan azad olunmuş Ağdam rayonuna səfər edib. Həmin diqqətəlayiq ziyarətin iştirakçılarından biri olan Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı "Həftə içi" əməkdaşı ilə söhbətində səfər təəssüratları ilə yanaşı, erməni məsələsinə baxışlarından, işğaldan azad yurdlarımıza Böyük Qayıdışla bağlı ümidlərindən və s. bəhs edib.***

***- Fəzail bəy, yəqin ki, siz sovet dövründə də, 1-ci Qarabağ savaşı zamanı da Ağdamda olmusunuz. Budəfəki səfərinizdə o günlərin Ağdamını yerində görməyəndə hansı hissləri yaşadınız?***

- Bəli, o illərdə gördüyümüz Ağdamı yerində görmədikdə çox ağır hisslər keçirdik. Bir daha erməni faşizminin iyrənc simasını, erməni vandallarının törətdiyi bəşəri cinayətlərdən birini də öz gözlərimizlə gördük... Gəldiyim qənaət bundan ibarətdir ki, ermənilər özlərinin dediyi kimi, "qədim, mədəni millət", "xristianlığı birinci qəbul edən bir xalq" deyillər. Onlar, sadəcə, vəhşi bir tayfa, qəbilədirlər. Dünyanın heç bir yerindəki heç bir savaşda bu dərəcədə vəhşilik, rəzillik, vandallıq törədilməyib. Hətta II Dünya müharibəsində faşist Almaniyası indiki Sankt-Peterburq şəhərini mühasirəyə alanda o şəhərin tarixi abidələrini məhv etməmək üçün oraya birbaşa hücum etmədi, oranı bombardıman etmədi, sadəcə, uzun müddət mühasirədə saxladı. Halbuki, Hitler də həmin şəhəri təyyarələrlə, artilleriya ilə altüst edə bilərdi...

Ağdam xarabalıqları arasında çox ağır, həm də qeyri-adi hisslər keçirir və düşünürdüm ki, uzun illərdən bəri Azərbaycanda, qardaş Türkiyədə soyqırımlar törədən, tarixi abidələrimizi yerlə-yeksan edən, ətrafımıza od vuran bu işğalçı, terrorçu erməni vandallarına Qarabağdakı, Ermənistandakı adi ermənilər nədən öz etirazlarını bildirmirlər. Deməli, belə çıxır ki, elə bu adi ermənilər də özlərinin üzdəniraq qəsbkar, terrorçu, faşist xislətli iqtidarları, rejimləri, vandalları ilə həmrəy, bərabərdirlər... Belədirsə, biz onlarla qonşu olaraq necə yaşaya bilərik? Onlar bizim torpaqlardan birmənalı olaraq rədd olub getməlidirlər. Və getsinlər. Bu, şəxsən mənim mövqeyimdir. Onlarla qonşuluqda yaşamaq mümkün deyil...

Təsəvvür edirsiniz, Ağdam yaxınlığında 6 min nəfərlik Şəhidlər xiyabanı yerlə-yeksan olunub, şumlanılıb, qəbiristanlığın yerindən yol çəkilib, cəsədləri çıxarıb yerinə taxıl əkiblər. Təxminən, 1-2 km yuxarıda isə keçmiş Əsgəran rayonunun ermənilər yaşayan bir kəndi var. Yəni bu, göstərir ki, hər şeyi bunlar edib. Məhz o kənddəkilər eləməsələr də, ən azı, bütün bunlar onların gözünün qarşısında olub...

Prezident İlham Əliyev Qarabağa səfərlərində dəfələrlə ermənilərin çox düzgün bir xarakteristikasını verərək deyir ki, bu torpaqlardan sanki ən vəhşi, ən yırtıcı xislətli bir qəbilə keçib. Həqiqətən, onlar qəbilədirlər...

Əminəm ki, Azərbaycan xalqı bu erməni vəhşiliklərini heç zaman unutmayacaq. Ermənilər də cənab Ali Baş Komandanın cəmi 44 gün ərzində başlarına endirdiyi "dəmir yumruğ"u unutmayacaqlar. Və əmin olsunlar ki, həmin "dəmir yumruq" daim onların başı üzərində olacaq...

***- Ağdamda olarkən sizdə belə bir ümid də yaranmadı ki, tezliklə sizin də vaxtilə ermənilərin işğal etdiyi doğma Zəngəzurunuzu, Qarakilsənizi də ziyarət edəcəyik?***



**Fəzail Ağamalı,**
Ana Vətən Partiyasının sədri, millət vəkili

- Sizə deyim ki, məndə belə bir ümid hələ Ağdama getməmişdən öncə yaranıb. Şuşa, sonra da Laçın işğaldan azad ediləndən sonra sosial şəbəkədə bir statusda yazdım ki, Şuşanın, Laçının azad edilməsi ilə bağlı mən digərlərindən fərqli olaraq daha çox sevinirəm. Ona görə ki, doğulduğum Qarakilsə mahalının dağlar köksündə yerləşən doğma Şıxlar kəndimə Bakıdan gedən qısa yol məhz Şuşadan, Laçından keçir. Laçın - Qarabağla bərabər Zəngəzurun da qapısıdır. Laçın bizdədirsə, mən də əminəm ki, inşallah, yaxın zamanlarda Zəngəzur da bizim olacaq. Bu halda ermənilər Qərbi Azərbaycanda qalıb adam kimi sakitcə yaşamaq istəsələr, biz onlara Azərbaycanın tərkibində bir mədəni-milli muxtariyyət təklif edə bilərik. Elə etməliyik ki, gələcəkdə ermənilər heç bir halda bir daha "Artsax", "miatsum" şüarları, "Böyük Ermənistan" xülyalarıyla meydanlara çıxmasınlar. Onsuz da tarix onların cəzasını verir.

Harada olublarsa, onlar həmin ölkəyə, xalqa qarşı nankorluq, namərdlik edə-edə gəlib bu günə çıxıblar. Bizans imperiyasından, Osmanlı sultanlığından, Türkiyədən, Rusiya imperiyasından Azərbaycana qədər... Şükürlər olsun ki, bütün bu xəyanətlərin cəzasını cəmi 44 gün ərzində bizim müzəffər Ali Baş Komandanımız və igid, qorxmaz əsgər və zabitlərimiz verdi, artıq bitdi erməni məsələsi.

Birdəfəlik tarixin zibilliyinə gömüldü. Azərbaycanın bu qələbəsindən kökünə qədər sarsılmış erməni etnosunun isə gələcəkdə mövcud olub-olmayacağı da artıq ciddi sual altındadır...

***- Bəzi partiyalar Ağdam səfərindən imtina etdi. Buna münasibətiniz necədir?***

- Münasibətim çox mənfidir. Onların bu torpaqda yaşamağa haqqı yoxdur. Əgər bu gün onlar gedib işğaldan azad edilmiş torpaqlarımızı və o yurdlarda ermənilərin törətmiş olduğu vandalizmi öz gözləri ilə görməkdən imtina edərək Azərbaycan xalqı ilə bərabər olmurlarsa, o torpaqlara ayaq basmağı özlərinə rəva görmürsə, şəhidlərin qanı ilə yoğrulmuş o torpaqlar önündə səcdə edib o yurdları müqəddəs bir varlıq kimi dəyərləndirməyi bacarmırlarsa, onların Bakı şəhərinin küçələrində də yaşamağa haqları yoxdur...

***- Fəzail bəy, elə teleekranlardan da Qarabağın xaraba qalmış ucsuz-bucaqsız yurdlarını, xüsusən də Ağdamı seyr edəndə ilk baxışdan adamı bir xof basır ki, görəsən, bu qədər viranə şəhər və kəndlərimizi necə bərpa edəcəyik? Buna gücümüz çatacaqmı? Ağdam xarabazarlarını yerindəcə görəndə sizdə də belə hisslər oyanmadı ki?***

- Xeyr, çünki qəti əminəm ki, Azərbaycanın bütün mənalarda böyük imkanları və geniş potensialı var. Siz yəqin ki, cənab Prezidentin işğaldan azad edilmiş torpaqlarımızı ziyarətləri zamanı çıxışlarına diqqət edirsiz, onun ermənilərə, dünya ermənilərinə, eyni zamanda onları himayə edən dövlətlərə söylədiyi mesajları da eşidirsiz. Cənab Ali Baş Komandan hər zaman olduğu kimi, indi də dediyi sözlərin arxasında dayanıb. Prezident 2003-cü ildən bəri dəfələrlə dedi ki, biz işğal altında torpaqlarımızı ya sülh, ya da hərb yoluyla mütləq azad edəcəyik və gördüyünüz kimi, bunu etdi. Bu gün cənab Prezident deyirsə ki, biz bu torpaqları abadlaşdıracağıq, dünyanın ən cənnət guşələrindən birinə, "ağıllı" şəhərlərə, kəndlərə çevirəcəyik, deməli, bunu da edəcəkdir. Onu da unutmayaq ki, Azərbaycanın 50 milyarda yaxın valyuta ehtiyatları, yetərli qədər maliyyə potensialı və resursları var. İqtisadiyyatımız ildən-ilə güclənir, inkişaf edir. Düşünək ki, 2020-ci ilədək Azərbaycan həmin potensialı işğala məruz qalmış ölkə kimi əldə edibsə, bu gün qalib ölkə kimi bu potensial hansı sürətlə artacaq. Eyni zamanda dünyanın 2020-ci ilədək Azərbaycana olan münasibəti ilə 2020-ci ildəki şanlı qələbəmizdən sonrakı qalib bir ölkəyə olan münasibətinin fərqini göz önünə gətirsək, tam əminliklə deyə bilərik ki, tezliklə, yaxın 5 ildə, Böyük Qayıdış həyata keçiriləcək.

> "Laçın bizdədirsə, əminəm ki, yaxın zamanlarda Zəngəzur da bizim olacaq...

Yəni işğaldan azad torpaqlarımız bərpa olunacaq və keçmiş köçkün vətəndaşlarımız orada ən yüksək səviyyədə həyatlarını quracaqlar... Yeri gəlmişkən Azərbaycan xalqını, xüsusilə keçmiş məcburi köçkünlərimizi bu günkü, ötən 30 ildəkindən tamamilə fərqli olan bu Qarabağlı, Şuşalı, Laçınlı, Kəlbəcərli, Ağdamlı... Novruz, Bahar bayramı münasibətilə təbrik edir, bütün torpaqlarımızda, o cümlədən Qarabağda xoşbəxt, sağlam, firavan bir həyat arzulayıram.

*✍ Sultan Laçın*

# Əfv və amnistiya aktları ənənə halını alıb



**Aynur Sabitova,**
Ədliyyə Nazirliyinin İnsan haqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi

***"Azərbaycanda insan hüquqlarının qorunmasında və cəza icra siyasətinin humanistləşməsində daim önəm verən cənab Prezident İlham Əliyev ötən gün növbəti humanist addım ataraq, bizim milli həmrəyliyimizin bariz nümunəsi olan Novruz bayramı ərəfəsində əfv sərəncamı imzalayıb".***

Bunu jurnalistlərə açıqlamasında Ədliyyə Nazirliyinin İnsan haqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi Aynur Sabitova deyib.

O bildirib ki, əfv sərəncamı 625 məhkuma şamil olunub: "Biz ictimaiyyət və ədliyyə nazirliyinin nümayəndələri həmin əfv sərəncamının icrasında iştirak etdik. Sərəncamın icrası artıq başa çatıb. Qeyd etmək istəyirəm ki, biz Novruz bayramı ərəfəsində on minlərlə insanın sevincinə şahid olduq. Bizim ölkəmizdə Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə əfv və amnistiya aktlarının imzalanması və icrası bir ənənə halına çevrilib".

İdarə rəisi qeyd edib ki, 2017-ci ilin 10 fevral tarixində cəza siyasətinin ölkəmizdə humanistləşməsinə dair Prezidentin fərmanı olub: "Həmin fərmanla Cinayət Məcəlləsində bəzi dəyişiklik olub. On minlərlə insana dair təqdimat məhkəmələrdə baxılıb. Bəziləri cəzanın qalan hissəsindən tam azad olunub, digər şəxslərin əməlləri tövsif edilərək yenidən onlara cəza təyin olunub. Həmçinin qeyd etmək istəyirəm ki, o vaxtdan bizdə Probasiya Xidməti yaranıb. Həmin xidmətdə də məhkumların bir hissəsinin azadlıqdan məhrumetmə cəzasının alternativi olaraq cəzaların icrası həyata keçirilir. Həmçinin bu gün Probasiya Xidmətində də azadlığa qovuşanlar var. Biz də öz növbəmizdə xalqımız adından möhtərəm cənab Prezidentə bayram ərəfəsində bu sevinci yaşadığına görə minnətdarlığımızı bildiririk".

# "Qarabağda, ən azı, 2 DOST Mərkəzinin açılışını planlaşdırırıq"



**"Böyük qürur hissi ilə demək istəyirəm ki, 44 günlük Zəfərimizdən sonra kifayət qədər geniş proqram hazırlamışıq".**

Bunu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Facebook" səhifəsindəki "Sosial saat"da Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin (DOST Agentliyi) İdarə Heyətinin sədri Fərid Məmmədov bildirib. Onun sözlərinə görə, "DOST Qarabağ" proqramı artıq təqdim olunub: "Həmin proqrama əsasən, Cəbrayıl və ya Füzuli şəhərlərinin birində DOST mərkəzinin təşkilini planlaşdırırıq. Eyni zamanda, Şuşa şəhərində DOST mərkəzinin bir filialını açacağıq. Ümumilikdə, Qarabağda, ən azı, 2 DOST mərkəzinin açılışını planlaşdırırıq".

Sumqayıtda və Gəncədə DOST mərkəzinin açılışı ilə bağlı layihələndirmə işlərinə start verilib. Fərid Məmmədov bildirib.

Onun sözlərinə görə, yaxın bir-iki il ərzində həm Sumqayıt, həm Gəncədə DOST mərkəzlərinin açılışı planlaşdırılır: "Eyni zamanda, Sabirabad, Quba, Bərdə və Masallı rayonlarında DOST mərkəzlərinin təşkili ilə bağlı işlərə start vermişik. Birinci konsepsiyada ölkə üzrə 31 DOST mərkəzinin açılışını planlaşdırmışdıq. Amma karantin dövrünü qiymətləndirdik və konsepsiyamıza dəyişikliklər etdik. Eyni zamanda, vətəndaşların çoxsaylı müraciətləri də nəzərə alınıb. Yeni plana əsasən, 16 DOST mərkəzi və 46 DOST filialı aşmaq niyyətindəyik. Bu yanaşma ilə yaxın 5 il ərzində bütün ölkəni DOST mərkəzləri və DOST xidmətləri ilə əhatə edəcəyik. Artıq bu istiqamətdə aktiv işlər görülür".

F.Məmmədov qeyd edib ki, yaxın zamanlarda bir çox xidmətlər elektronlaşdırılacaq: "Nazirlik üzrə də bir çox proqramlar artıq həm proaktivləşdirilir, həm elektronlaşır.

Eyni zamanda, hazırda virtual DOST proqramı üzərində iş aparırıq. Bütün xidmətlərimizin virtuallaşması istiqamətində işlər gedir".

# Ermənistanla sərhəddə DSX-nın yeni hərbi hissəsi fəaliyyətə başladı



**Martın 19-da Qubadlı rayonu ərazisində Ermənistanla dövlət sərhədində yeni hərbi hissə - sərhəd komendantlığı xidməti döyüş fəaliyyətinə başlayıb. Bu barədə hafta.az-a Dövlət Sərhəd Xidmətindən (DSX) məlumat verilib.**

Bununla əlaqədar təşkil olunmuş mərasimdə Dövlət Sərhəd Xidməti rəisinin müavini general-leytenant Azad Ələkbərov çıxış edərək yeni hərbi hissə□nin fəaliyyətə başlaması münasibətilə Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyevin təbrikini şəxsi heyətə çatdırıb.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi, o cümlədən Ermənistan Respublikası ilə dövlət sərhədinin azad olunmasından sonra Azərbaycan Respublikasının Prezidenti Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən bu ərazilərdə qısa müddət ərzində artıq sayca dördüncü hərbi hissənin xidməti-döyüş fəaliyyətinə başlamasının azad edilmiş dövlət sərhədlərimizin etibarlı mühafizə altına götürülməsi prosesi üçün böyük əhəmiyyət kəsb etməsi qeyd olunub.

Tədbirin sonunda xidməti fəaliyyətində yüksək nəticələr göstərmiş bir qrup hərbi qulluqçu təltif edilib. Sonra mərasim iştirakçıları sərhəd komendantlığının hərbi qulluqçularının xidməti-döyüş fəaliyyətinin yerinə yetirilməsi üçün yaradılmış şəraitlə tanış olublar.

# Daha 40 şəhid ailəsi mənzillə təmin edilib



**Prezident İlham Əliyevin xüsusi diqqət və qayğısı nəticəsində şəhid ailələrinin, müharibə əlillərinin mənzil və fərdi evlə təminatı proqramı 2018-ci ilə nisbətən bu il 5 dəfəyə yaxın genişlənəcək. 2021-ci ildə onlara 3 minədək mənzil və fərdi ev verilməsi nəzərdə tutulub.**

Bunu əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Hidayət Abdullayev Ramana qəsəbəsindəki yaşayış kompleksində şəhid ailələri və müharibə əlillərinə daha 50 mənzilin təqdim olunması tədbirində bildirib. Tədbirdə Milli Paralimpiya Komitəsinin vitse-prezidenti, paracüdo üzrə ikiqat Paralimpiya, ikiqat dünya və yeddiqat Avropa çempionu İlham Zəkiyev də iştirak edib.

Nazir müavini yeni mənzillə təmin edilən şəhid ailələrini və müharibə əlillərini bu və qarşıdan gələn Novruz bayramı münasibətilə Nazirliyin rəhbərliyi adından təbrik edib, onlara xoş arzularını çatdırıb. Qeyd edib ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən şəhid ailələrinə, müharibə əlillərinə 2018-ci ildə 626 ədəd, 2019-cu ildə bundan 50 faiz çox olmaqla 934 ədəd, 2020-ci ildə isə əvvəlki ilə nisbətən 70 faizə qədər çox olmaqla 1572 mənzil və fərdi ev verilib. Dövlət başçısının 25 yanvar 2021-ci il tarixli Sərəncamı ilə yaxın 5 ildə bu kateqoriyadan olan 11 min şəxs mənzillə təmin ediləcək. H.Abdullayev diqqətə çatdırıb ki, 2021-ci ilin planı üzrə artıq 140 mənzil şəhid ailələri və müharibə əlillərinə verilib. İndiyədək isə şəhid ailələri və müharibə əlillərinə 9300-dək mənzil və fərdi ev verilib. Həmçinin müharibə əlillərinin minik avtomobilləri ilə təminatı tədbirləri də uğurla davam edir. Nazirlik tərəfindən onlara 2018-ci ildə 265 avtomobil, 2019-cu ildə 600, 2020-ci ildə 400 və ümumilikdə indiyədək 7200-dən çox avtomobil verilib.

Nazir müavini postmüharibə dövründə şəhid ailələri, müharibə iştirakçıları, müharibədə yaralanmış hərbçilər, müharibə əlilləri, erməni terrorundan zərər çəkənlərlə bağlı çevik və genişmiqyaslı sosial dəstək tədbirlərini də qeyd edib. Bu tədbirlərin artıq 20 mindən çox vətəndaşı əhatə etdiyini diqqətə çatdırıb.

# Daha 5 siyasi partiya ofislə təmin olunub

**Fəaliyyət imkanlarının genişləndirilməsi, iş şəraitinin yaxşılaşdırılması məqsədilə siyasi partiyaların dövlət mülkiyyətində olan qeyri-yaşayış sahələri ilə təminatı prosesi davam etdirilir.**

ƏMLAK MƏSƏLƏLƏRİ DÖVLƏT XİDMƏTİ

Azərbaycan İqtisadiyyat Nazirliyindən hafta.-az-a verilən məlumata görə, martın 19-da İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən daha beş siyasi partiyaya fəaliyyət göstərmələri üçün ofis sahəsi təqdim edilib. Müstəqil Xalq Partiyası, Azərbaycan Azad Demokratlar Partiyası, Aydınlar Partiyası, Vəhdət Partiyası və Gələcək Azərbaycan Partiyasının nümayəndələri fəaliyyət göstərəcəkləri ofislərlə tanış olublar.

Layihə

# Gələcəyin alimləri



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması

***Son illər məktəblilər arasında elmi tədqiqatçılığın təşviq olunması istiqamətində atılan addımlar yeni istedadların aşkara çıxarılması üçün əlverişli imkan yaradıb. Belə ki, hazırda Təhsil Nazirliyi tərəfindən görülən məqsədyönlü tədbirlər nəticəsində öz zəkalarının məhsulunu ortaya qoyan yeni ixtiraçı nəsil formalaşmaqdadır. "Sabahın alimləri" elm müsabiqəsi isə gənc ixtiraçıların yoluna işıq tutan əhəmiyyətli tədbirlərdən biridir. Məlumat üçün bildirək ki, 2012-ci ildən başlayaraq Azərbaycanda "Sabahın alimləri" respublika müsabiqəsi keçirilməyə başlanılıb. Müsabiqə İSEF - Beynəlxalq Elm və Mühəndislik Sərgisi çərçivəsində keçirilir.***

**Təhsil Nazirliyi tərəfindən görülən məqsədyönlü tədbirlər nəticəsində öz zəkalarının məhsulunu ortaya qoyan yeni ixtiraçı nəsil formalaşmaqdadır**

Müsabiqənin məqsədi ölkəmizdə fəaliyyət göstərən ümumtəhsil müəssisələrinin IX-XI siniflərində təhsil alan şagirdlərin elmi axtarışlara sövq edilməsi, onların elmi və yaradıcılıq fəaliyyətinin stimullaşdırılması, elmi tədqiqat işinə meyli olan istedadlı şagirdlərin aşkar edilməsi, həmçinin yüksək elmi-tədqiqat nəticələri əldə etmiş Azərbaycan məktəblilərinin seçilib ABŞ-da keçirilən İntel İSEF - Beynəlxalq Elm və Mühəndislik Sərgisinə göndərilməsidir. Müsabiqədə qiymətləndirmə 8 kateqoriya (riyaziyyat, fizika və astronomiya, kimya, biologiya, tibb və sağlamlıq, ekologiya və ətraf mühitin idarə olunması, mühəndislik, kompüter elmləri) üzrə həyata keçirilir.

Maraqlıdır, görəsən, bu il keçirilən müsabiqədə hansı məktəblərin şagirdləri qalib elan olub? Onlar ənənəvi İSEF - Mühəndislik Sərgisində ölkəmizi hansı layihələrlə təmsil edəcəklər? Seçilən layihələrin özəllikləri nədən ibarətdir?

Bununla bağlı "Həftə içi" qəzetinin sorğusuna cavab olaraq Təhsil Nazirliyindən bildirilib ki, 2021-ci il 10-17 fevral tarixlərində keçirilmiş "Sabahın alimləri" X Respublika Müsabiqəsinin qalibləri 31 məktəbdən olub. Bu məktəblər aşağıdakılardır:

*1. Bakı şəhəri, Heydər Əliyev adına Müasir Təhsil Kompleksi.*
*2. Bakı şəhəri - 132-134 nömrəli Təhsil Kompleksi.*
*3. Bakı şəhər - BDU-nun nəzdində Gənc İstedadlar liseyi.*
*4. Sumqayıt şəhəri, 11 nömrəli tam orta məktəb.*
*5. Sumqayıt şəhəri, Təbiət elmləri təmayüllü gimnaziya.*
*6. Bakı şəhəri - Akademik Zərifə Əliyeva adına lisey.*
*7. Bakı şəhəri, 260 nömrəli tam orta məktəb.*
*8. Bakı şəhəri, Slavyan Universiteti nəzdində Məktəb-Lisey Kompleksi.*
*9. Sumqayıt şəhəri, TETG.*
*10. Bakı şəhəri, 30 nömrəli tam orta məktəb.*
*11. Bakı şəhəri - Bakı Avropa Liseyi.*
*12. Bakı şəhəri, Akademik Z.Əliyeva adına lisey.*
*13. Bakı şəhəri, Avropa Azərbaycan Məktəbi.*
*14. Bakı şəhəri - Landau High School.*
*15. Sumqayıt şəhəri, Təfəkkür liseyi.*
*16. Bakı şəhəri - 299 nömrəli məktəb-lisey.*
*17. Samux rayonu, Qarayeri 2 nömrəli məktəb.*
*18. Bakı şəhəri, Bakı Modern Təhsil Kompleksi.*
*19. Bakı şəhəri, 53 nömrəli tam orta məktəb.*
*20. Sumqayıt şəhəri, 23 nömrəli tam orta məktəb.*
*21. Bakı şəhəri, 44 nömrəli tam orta məktəb.*
*22. Naxçıvan Muxtar Respublikası, H.Cavid adına 5 saylı tam orta məktəb.*
*23. Bakı şəhəri, 238 nömrəli tam orta məktəb.*
*24. Ağdaş rayonu, Nizami adına 2 saylı tam orta məktəb.*
*25. Ağdaş rayonu, Maqsud Şeyxzadə adına THT tipli gimzaniya.*
*26. Ağdaş rayonu, Səməd Vurğun adına 1 saylı tam orta məktəb.*
*27. Bakı şəhəri, 60 saylı tam orta məktəb.*
*28. Sumqayıt şəhəri, İstedad liseyi.*
*29. Hədəf liseyi.*
*30. Sumqayıt şəhəri, 27 saylı tam orta məktəb.*
*31. Bakı şəhəri, Binəqədi rayonu 276 saylı tam orta məktəb.*

Nazirlikdən vurğulanıb ki, qaliblər içərisindən seçilmiş 7 layihə (10 şagird) 2021-ci il 16-25 may tarixlərində İSEF-Mühəndislik sərgisində Azərbaycanı təmsil edəcəklər: "Layihələr Münsiflər Heyəti tərəfindən seçilib. Əsas olaraq, Elmi problemin qoyuluşu, Tədqiqatın planlaşdırılması, Yaradıcı yanaşma, Məlumatların toplanması, Layihənin təqdimatı və əsas olaraq elmi yeniliyin olması qiymətləndirilmişdir. Ən nəhayət ABŞ-da Azərbaycanı təmsil edən şagirdlərin ingilis dilində danışıq bacarıqları yoxlanılmış, layihənin ingilis dilində təqdimatı dinlənilmişdir".

ABŞ-da keçiriləcək müsabiqəyə seçilmiş layihələrdən biri, riyaziyyat bölməsi üzrə Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin 11-ci sinif şagirdi Rafiq Qasımovun hazırladığı layihədir. Onun layihəsinin adı "Triqonometriyanın köməyi ilə bəzi cəbri misalların həlli"dir. Gələcəyin elm adamı bildirib ki, göstərdiyi həll üsulu riyaziyyatla dərindən maraqlanan şəxslər üçün çox faydalı ola bilər: "Təqdim olunan bu layihədə mən cəbri misalların həllini triqonometrik əvəzetmələrin köməyi ilə triqonometrik misalların həllinə gətirdim. Həll etdiyim tənlikləri analitik üsulla həll etmək xeyli çətin olduğundan göstərdiyim həll üsulu riyaziyyatla dərindən maraqlanan şəxslər üçün çox faydalı ola bilər".

Bakıdakı 132-134 nömrəli təhsil kompleksinin XI sinif şagirdi Emin Xəlifəyevin "Super sərt ion birləşmələrinin tədqiqi" mövzusunda layihəsi müasir fiziki-kimyəvi tədqiqatlarda ən çox maraq doğuran problemin həllinə həsr olunub. E.Xəlifəyev elmi rəhbəri, kompleksin müəllimi doktor Fransis Manto ilə üzərində işlədiyi layihə barədə fikirlərini bölüşüb: "Tədqiqatımın məqsədi sərtliyinə görə almaz ilə müqayisə olunan, lakin hərbi sənayedə (bıçaq və saper kəsiciləri), konveyer istehsalında (çilingər və yonma dəzgahları), cərrahiyyədə (skalpellər və oftalmoloji bıçaqlar) daha əlverişli və praktik olan materialları aşkar etməkdir. Layihə üzərində işləyərkən mən kristal kimya və bərk maddənin mexaniki modelləşdirilməsi prinsiplərindən istifadə edərək 40.000-dən çox hipotetik birləşməni araşdırdım. Layihəm təklif olunan materialların səmərəliliyinin artırılması və daha keyfiyyətli məhsulların maya dəyərinin aşağı salınması üçün işçi səthinə tətbiq edilməsini nəzərdə tutur".

Bakı Avropa liseyinin X sinif şagirdi Faiq Qasımovun tibb və sağlamlıq sahəsinə həsr olunmuş tədqiqatı da qalib layihələrdəndir. Tədqiqatçı bildirib ki, layihəm müasir tibbin ən aktual, hələ də öz həllini tapmamış problemlərindən biri olan körpə ölümü və erkən əlillik probleminə həsr olunub: "Məlumdur ki, əlil olan uşaqların bir çoxu körpəlikdə qıcolmalar keçirib. Bunu əsas tutaraq apardığım tədqiqatda qeyri-invaziv metod olan infraqırmızı spektrometriyadan qıcolmaların erkən diaqnostikasında istifadə etmişəm, eyni zamanda aparılan müayinə metodu ilə beyin zədələnmələrinin ağırlıq dərəcəsini müəyyən etməyə nail olmuşam. Beləliklə də alınan nəticələrin vasitəsi ilə gələcəkdə körpələri qıcolmalar baş verməmədən öncə müayinə etmək mümkün olacaq ki, bu da effektiv müalicə metodunun seçimində kömək edəcək".

Bakı Dövlət Universiteti nəzdində "Gənc istedadlar" liseyinin X sinif şagirdləri Rəfsan Həbibullayev və Tamilla Süleymanovanın "biologiya" kateqoriyası üzrə tədqiqat layihəsi "RNT-lər və zülallar" mövzusuna həsr olunub.

Şagirdlərimiz qeyd edirlər ki, layihənin məqsədi insan, bəzi məməlilərdə və ali bitkilərdə eyni istiqamətli, yaxın, qonşu gen cütlərini genom miqyasında müəyyənləşdirmək və həmin genomların hüceyrə differensiasiyası, xərçəng və qocalmada rol oynayan eyni istiqamətli (quyruq-baş) və yaxın qonşu transkripsiya ilə induksiya olunan ximer RNT-lərin törənmə potensialını müqayisəli surətdə qiymətləndirmək olub.

Sumqayıtdakı 11 nömrəli tam orta məktəbin XI sinif şagirdi Banuçiçək Kərimli və IX sinif şagirdi Murad Məmmədzadənin müsabiqəyə təqdim etdiyi layihənin adı "Smart Speech Synthesizer"dır. Bu, üz əzələ hərəkətlərini danışığa çevirən cihazdır. Layihə barədə məlumat verən B.Kərimli qeyd edib ki, layihəmizin əsas məqsədi nitq qüsurlu insanların ətraf mühitlə ünsiyyətini təmin edərək onların həyat keyfiyyətini yüksəldəcək Danışıq Sintezi İnterfeysi (DSI) yaratmaqdır: "Cihazımızın işləmə qaydası belədir: EMG elektrod, yəni əzələ sensoru xəstə insanın yanaq əzələlərinə bərkidilir. Əzələ hərəkətlərini nitqə çevirən kod vasitəsi ilə insanların əzələ hərəkətləri səsləndirilir. Bizim fərziyyəmizə əsasən təklif etdiyimiz model daha dayanıqlı və davamlı EMQ (elektromioqrafiya) potensialları əsasında mükəmməl sistem qurmağa imkan verəcək".

Bakıdakı 260 nömrəli tam orta məktəbin X sinif şagirdi İlkin Səmədovun və BDU nəzdindəki "Gənc istedadlar" liseyinin X sinif şagirdi Əli Əkbərzadənin tədqiqat işi "Tədrisdə virtual laboratoriyanın yaradılması və onun tətbiqi" mövzusuna həsr olunub. İ.Səmədovun sözlərinə görə, təqdim olunan iş biologiya dərslərində istifadə üçün virtual laboratoriyaların yaradılmasına həsr olunub və mühüm nəticələr əldə edilmişdir. Eksperimentin alqoritmi qurulmuş və onun "Unity" proqram dilində proqramı yazılmışdır. Yekun olaraq virtual laboratoriya hazırlanmışdır.

Bakıdakı akademik Zərifə Əliyeva adına liseyin IX sinif şagirdi Məhəmməd Abbaslının "Army Bot" adlı layihəsi də qalib layihələrdəndir. Tədqiqatçı bildirib ki, layihəsinin əsas məqsədi hərbi sahədə insan itkisinin qarşısının alınması, eləcə də insan rolunun azaldılmasını nəzərdə tutur.

***✍ Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

## BİR CÜMLƏ - BİR XƏBƏR

■ Azərbaycan sərbəst güləşçisi Abubakr Abakarov Macarıstanın paytaxtı Budapeştdə keçirilən güləş üzrə Avropa Olimpiya Təsnifat Turnirində erməni güləşçi Hovannes Mxitaryanı 8:5 hesabı ilə məğlub edib.

■ Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 879 yeni yoluxma faktı qeydə alınıb, 334 nəfər müalicə olunaraq sağalıb, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 11 nəfər vəfat edib.

■ "Real"ın müdafiəçisi Marselo Türkiyəyə köçə bilər, "Qalatasaray" braziliyalı sol cinah oyunçusunun xidmətində maraqlıdır.

■ Azərbaycan Mərkəzi Bankının (AMB) İdarə Heyəti uçot dərəcəsini sabit saxlanılması haqqında qərar qəbul edib, uçot dərəcəsi 6,25%-də, faiz dəhlizinin aşağı həddi 5,75%, faiz dəhlizinin yuxarı həddi isə 6,75% səviyyəsində qalıb.

■ Azərbaycanda bu günə kimi 475 minə yaxın şəxs vaksinasiya olunub, bu barədə Nazirlər Kabineti yanında Operativ Qərargahdan məlumat verilib.

■ Abşeron Rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova COVİD-19 əleyhinə peyvənd olunub, bu barədə Abşeron RİH-nin mətbuat katibi Seymur Qasımov məlumat verib.

■ Fevralda Azərbaycandan Avropa İttifaqına (Aİ) üzv ölkələrə 501,4 milyon ABŞ dolları dəyərində məhsul ixrac olunub, keçən ay Aİ ölkələrindən Azərbaycana idxal edilən məhsulun dəyəri isə 152,8 milyon dollar təşkil edib.

■ Qubadlı rayonu ərazisində Ermənistanla dövlət sərhədində yeni hərbi hissə - sərhəd komendantlığı xidməti-döyüş fəaliyyətinə başlayıb, bu barədə Dövlət Sərhəd Xidməti məlumat yayıb.

■ Fevral ayında dəniz nəqliyyatı ilə ümumilikdə 33 min 676 ton yük daşınıb ki, bu yüklərin dəyəri 69,6 milyon ABŞ dolları olub.

■ Çinin cənub-qərbindəki Tibet Muxtar bölgəsində 6,1 bal gücündə zəlzələ baş verib, bu barədə Çin Seysmoloji Mərkəzi məlumat yayıb.

■ Bu ilin yanvar-fevral aylarında Azərbaycanla Rusiya arasında ticarət dövriyyəsinin həcmi 332,561 mln. ABŞ dolları təşkil edib ki, bu da 2020-ci ilin eyni dövrü ilə müqayisədə 4,2% azdır.

■ Fevralda mədənçıxarma sənayesində istehsal olunmuş əsas məhsul növlərindən sayılan qiymətli metal filizlərinin 260,1 kiloqramı qızılın payına düşüb, bu göstərici əvvəlki ayla müqayisədə 10,8 kiloqram az olub.

■ Antalyadan Moskvaya uçan "Ural Hava Yolları"na məxsus təyyarə Rostov aeroportunda qəza enişi edib, "Airbus A321" təyyarəsi texniki nasazlıq səbəbindən Rostov aeroportuna enib.

■ Milli Statistika İdarəsi Britaniyada 2020-ci il ərzində ölüm hallarının 7 faiz artdığını açıqlayıb. Bu, Avropada ən yüksək göstəricilərdən biridir, rəqəmlərin yüksəlməsinə səbəb kimi koronavirusdan ölənlərin sayının çoxluğu göstərilib.

■ UEFA Çempionlar Liqasında səkkizdəbir final mərhələsinin son dörd cavab matçından sonra həftənin ən yaxşı futbolçusu adına azarkeşlər arasında keçirilən səsvermə nəticəsində "Real Madrid" klubunun yarımmüdafiəçisi Luka Modriç layiq görülüb.




# "Nar+" tətbiqini yüklə, xüsusi bonuslardan yararlan!

**"Nar" hesab üzərində bir çox əməliyyatları yerinə yetirməyə imkan verən "Nar+" tətbiqində qeydiyyatdan keçən yeni abunəçiləri üçün Novruz kampaniyasına start verir. Kampaniya müddətində yeni qeydiyyatdan keçən bütün "Nar" abunəçilərinə 24 saat ərzində xüsusi hədiyyələr təqdim olunacaq. Kampaniya 19 aprel tarixinədək keçərlidir.**

Xatırladaq ki, "Nar+" tətbiqi hesabı daha asan idarə etməyə və bir çox mühüm əməliyyatları bir neçə saniyədə yerinə yetirməyə imkan verir. Bu tətbiqlə abunəçilər tariflər haqqında məlumat əldə edib, özlərinə ən uyğun tarifə qoşula, mövcud tarifi dəyişə, yeni internet paketi sifariş edə, bonusların yoxlaya və yeniləyə bilirlər. Abunəçilər müxtəlif sorğuları ilə bağlı onlayn çat xidmətinə də müraciət edib suallarını ünvanlaya bilərlər. Qeyd edək ki, ötən il onlayn çat xidmətindən yararlananların sayı 195 mini ötüb. "Nar+" tətbiqini AppStore <https://itunes.apple.com/us/app/id-1455948467?ls=1&mt=8> və PlayStore <https://play.google.com/store/apps/details?id=com.nar.ecare>-dan yükləmək mümkündür.

# Ermənistanın müharibə cinayətləri sərhəd tanımır

***"lagazetteaz.fr" onlayn fransız qəzetində "Qarabağ: Minalanmış sahələrin xəritəsi niyə verilmir? - Ermənistanın müharibə cinayətləri sərhəd tanımır" başlıqlı məqalə dərc olunub.***



Məqalədə bildirilir ki, Ermənistan silahlı qüvvələrinin ərazilərimizi minalaması səbəbindən 10 noyabr 2020-ci il tarixdən hazırkı vaxtadək is?g?aldan azad edilmiş? ərazilərdə mina partlayışı ilə bağlı 15 hadisə baş verib. 30 mülki şəxs minaya düşüb. Onlardan 14 nəfər həlak olub, 16 nəfər isə müxtəlif dərəcəli xəsarətlər alıb:

"Müharibədən cəmi 4 ay keçməsinə baxmayaraq, bu qədər mülki şəxsin minaya düşməsi Azərbaycan və bir çox dünya ölkələrini narahat edir. Bütün bunlara rəğmən, Ermənistan minalanmış sahələrin xəritəsini Azərbaycana təqdim etmir. Dünya dövlətləri tərəfindən bununla bağlı çoxsaylı çağırışlar olsa da Ermənistana birbaşa təzyiqlər göstərilmir. Beynəlxalq təşkilatlar İkinci Qarabağ müharibəsindən öncə olduğu kimi, yenə susqunluq nümayiş etdirir. Nəticədə Ermənistan da öz müharibə cinayətlərini davam etdirir".

Həmçinin, qeyd edilir ki, Ermənistan minalanmış ərazilərin xəritəsini gizlətməklə birinci növbədə sülhə mane olur. İkincisi isə bu, bütün beynəlxalq qanunlara, prinsiplərə zidd və hərbi cinayət hesab olunur. Ermənistandan fərqli olaraq, Azərbaycan tərəfi 10 Noyabr razılaşmasına tam əməl edir, hətta bir sıra məsələlərdə humanistlik nümayiş etdirir. Məsələn, Ermənistan Kəlbəcərin boşaldılmasına əlavə 10 gün vaxt istədi və Azərbaycan tərəfi humanistlik göstərərək bu vaxtı verdi. Lakin eyni humanist addımları Ermənistan tərəfindən görmürük. Əksinə, Ermənistan tərəfi minalanmış ərazilərin xəritəsini gizlətməklə həm daha çox insanın həlak olmasına, həm də işğaldan azad edilmiş ərazilərin bərpasını ləngitməyə çalışır.

Məqalədə Azərbaycan Prezidentinin fevralın 26-da yerli və xarici media nümayəndələri üçün mətbuat konfransında bu məsələ ilə bağlı fikirlərinə də yer verib. "Minalanmış sahələrin xəritələrini bizə verməmək dinc vətəndaşları və hərbi qulluqçuları bilərəkdən ölümə və şikəstliyə məhkum etmək deməkdir. Hansı əməkdaşlıqdan söhbət gedə bilər? Belə olan təqdirdə birtərəfli əməkdaşlıq ola bilməz" - deyə, dövlət başçısının nitqindən sitat təqdim olunub.

Məqalədə, həmçinin Ermənistanın müharibə cinayətləri barədə hərbi ekspertlər və xarici medialarda dərc olunan məqalələrdən bəhs edilib. Həm ekspertlər, həm də media resursları "minalanmış ərazilərin xəritəsini Ermənistan Azərbaycana verməlidir, əks halda, bu, hərbi cinayət hesab olunur" deyə, qeyd edirlər.

O da vurğulanır ki, bütün bunlar Ermənistanın düz yola qayıtması üçün yetərli deyil.

Ona görə də dünya birliyi - beynəlxalq təşkilatlar və nüfuzlu ölkələr Ermənistana konkret təzyiqlər göstərməli və ya sanksiyalar tətbiq etməlidir. Əks təqdirdə, Ermənistanın bu naqis niyyəti ucbatından onlarla günahsız mülki şəxsin həyatı hələ də təhdid altında qalacaq.

## Müsahib

# Ölkəmizdə yeni mədəniyyət strategiyası həyata keçirilir

***44** günlük Vətən Müharibəsi Azərbaycanın qarşısında yeni bir yol xəritəsi açıb. Faktlar göstərir ki, Azərbaycan bəşəriyyətin nə vaxtsa üzləşə biləcəyi erməni soyqırımı, faşizmi ilə üz-üzədir. Azərbaycanın mədəni irsinin erməni vandallığı nəticəsində dağıdılması, məruz qaldığı haqsızlığın beynəlxalq hüququn qarşısına necə çıxarılması, haqq-ədalətin bərpası üçün onun üzərinə hansı tələblərin qoyulması sualı öz həllini tapmalıdır. Hazırda mədəniyyət siyasətimiz özünübərpa və mühafizə sistemini necə gücləndirməlidir məsələsi də əsas addımlardan biri hesab olunur. Bu və ya digər məsələlərlə bağlı "Həftə içi"nə müsahibə verən Milli Məclisin Mədəniyyət Komitəsinin sədri, millət vəkili Qənirə Paşayeva bir çox məqamlara aydınlıq gətirib.***

***- Qənirə xanım, bilirik ki, Milli Məclisin Mədəniyyət Komitəsinin sədri olaraq mədəniyyət və incəsənət sahəsində çalışan müxtəlif insanlarla mütəmadi görüşlər keçirirsiz. Mədəniyyət adamları ilə apardığınız bu görüşlər sizdə hansı qənaəti formalaşdırıb? Necə hesab edirsiz, bu sahədə daha çox hansı problemlər var və mədəniyyətimizin inkişafı naminə daha çox hansı məsələlərin həlli üzərində işlənməlidir?***

- Bəli, biz Mədəniyyət Komitəsində davamlı olaraq görüşlər, müzakirələr keçiririk. Pandemiya məhdudiyyətləri olmasaydı, daha böyük heyətlərlə görüşlər, müzakirələr keçirmək planlarımız vardı. Ümidvaram, postpandemiya dövründə bizi yeni görüşlər, qarşılıqlı maraq doğuran məsələlər ətrafında müzakirələr və işgüzar səfərlər gözləyir; o vaxtadək nə mümkünsə o işlərlə məşğul oluruq.

Ölkəmizin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın mədəni irsimizin qorunması, mədəniyyətimizin ölkə xaricində təbliği, gənc istedadların üzə çıxarılması, onlara dəstək göstərilməsi sahəsində əvəzsiz xidmətləri bütün mədəniyyət işçiləri, sənət aləmində çalışanlar üçün örnək təşkil edir.

Qənaətlərə gəlincə, ilk növbədə, onu vurğulamalıyıq ki, dövlət başçımızın ideya müəllifi olduğu yeni mədəniyyət strategiyası həyata keçirilir, Mədəniyyət Nazirliyi yeni nazirin rəhbərliyi və yeniləşən kollektivi, yeni yanaşmaları, qaldırılan məsələlərə çevik reaksiyası ilə seçilir. Cənab Prezident bu ili Nizami İli, Şuşanı Mədəniyyət Paytaxtı elan edib, eləcə də, "Xarı bülbül" festivalı, "Vaqif Poeziya Günləri" bərpa olunub, qüdrətli söz ustadı Aşıq Ələsgərin 200 illik yubileyi ilə bağlı Sərəncam imzalanıb - bütün bu hadisələr 2021-ci ili mədəniyyət ili kimi xarakterizə etməmizi ciddi şəkildə əsaslı qılır. Bu əsas, önəmli dərəcədə, Qarabağda Ermənistanın işğalçılıq mədəniyyətsizliyindən Azərbaycanın quruculuq mədəniyyətinə keçidini də özündə ehtiva edir.

Əlbəttə, bu fundamental hadisələrlə yanaşı, sənətkarların, gənc istedadların özünəməxsus qayğıları da olur, onları dinləyir, əlaqədar orqanlarla müzakirələr aparır, mümkün köməklik göstərilməsinə çalışırıq. Doğrusu, bəzən bizim kompetensiyamızdan kənar mövzularda da müraciətlər olur. Olsun ki, bizim fərdi şəkildə təcrübəmiz, malik olduğumuz biliklər qaldırılan sualları cavablandırmağa uyğun olsun, lakin hər bir kəsin tutduğu vəzifə çərçivəsində malik olduğu səlahiyyət dairəsi vardır. Bu mənada, biz, təzadlı müraciətlər olunca da, vətəndaşımızı, sənət adamlarını incitmədən, müraciət edilən mövzunu səlahiyyətli orqanların diqqətinə çatdırır, onların köməyini xahiş edirik.

Bir də, biz ağır işğala son verən müharibədən yenicə çıxmış ölkəyik. Postmüharibə dövrünün öz qayğıları, çağırışları var. Bu da müəyyən əlavə diqqət, enerji və intensiv müzakirələr tələb edir. Çalışırıq, Mədəniyyət Komitəsini ümid yeri bilib gələn vətəndaşlarımızı, aydınlarımızı razı salacaq cavablarımız, davranışımız olsun.

***- Azərbaycan mədəniyyəti ilə bağlı qanunvericilikdə hansı boşluqlar var və hansı dəyişikliklərə ehtiyac duyulur? Mədəniyyətimizin qarşısında dayanan hansı məsələlər tez bir zamanda öz həllini tapmalıdır?***

- Əlbəttə, yeni dövr, yeni çağırışlardan, üstəlik, yeni mədəniyyət strategiyasından danışırıqsa, bunlar toplu halda qanunvericilik aktlarında da öz inkasını tapmalıdır. Məsələn mədəniyyətin, incəsənətin ayrı-ayrı sahələri üzrə qanunlar qəbul edilməsi bir yanaşma olub, bütün əməli mədəniyyət-incəsənət sahələrini əhatə edən ümumi bir qanunun qəbulu başqa bir yanaşma olub. Biz teatr, kino, ədəbiyyat, musiqi, rəssamlıq və digər yaradıcılıq sahələri üzrə mütəxəssislərlə, görkəmli sənətkarlarla, parlamentin müvafiq şöbəsi ilə və əlbəttə, Mədəniyyət Nazirliyi ilə sıx məsləhətləşmələr içindəyik.

Ötən plenar iclaslarda müəllif hüquqları ilə bağlı, Azərbaycan-Türkiyə Media Platforması ilə bağlı qanun layihələrinin müzakirəsini, mədəniyyət sahəsinə aid qanunlara bir sıra əlavə və dəyişikliklərlə bağlı Komitədə və Milli Məclisdə müzakirələr aparmışıq. Qeyd olunan istiqamətlərdə artıq I və II oxunuşda səsvermə keçirilib, ümidvaram, növbəti oxunuşda da Millət vəkili həmkarlarım bütün mütərəqqi təklifləri öz səsləri ilə dəstəkləyəcəkdir. Parlamentin növbəti mövsümündə Mədəniyyət Nazirliyi ilə məsləhətli şəkildə qanun layihələrinin müzakirəsi istisna deyil. Mən hadisələri



**Qənirə Paşayeva,**
Milli Məclisin Mədəniyyət Komitəsinin sədri, millət vəkili

qabaqlamaq istəmirəm ancaq zaman içində, mədəniyyət ictimaiyyətini düşündürən məsələlərin qanunvericilikdə öz praktik həllini tapması üçün müvafiq işlər görüləcək.

***- Mədəniyyət Nazirliyində aparılan kadr islahatlarının əhəmiyyəti barədə nələri söyləmək olar? İslahatlar incəsənət - kino, teatr sahəsində, eləcə də tarixi memarlıq abidələrinin bərpası, qorunması istiqamətində hansı məsələlərin həllinə təkan verə bilər?***

- Mədəniyyət Nazirliyində ciddi kadr islahatı həyata keçirilməsi yeni mədəniyyət strategiyası, ümumən yeniləşən, bir çox əməli çalışma sahələri üzrə dərinləşən islahatlar fonunda baş verir. Üstəlik, bu nazirlik də daxil olmaqla, bütövlükdə hökumətimiz qalib ölkə hökuməti modunda çalışması ilə fərqlənir, deyə bilərik. Dövlətimiz indi ilk növbədə işğaldan azad olunmuş torpaqlarımızda, şəhər və rayonlarımızda tarixi memarlıq abidələrinin bərpası, etibarlı qorunması istiqamətində işlər aparır. Bu planda, işğalın acı nəticələri-

> "
>
> *Ən vacib məsələlərdən biri istedadlı yaradıcı gənclərə dəstəyin daha da artmasıdır*

nin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması, özəlliklə UNESCO-nun diqqətinin bu işə cəlb olunması təxirəsalınmaz işlər sırasındadır. Qaldı ki işğal zonasında olmamış tarixi memarlıq abidələrinin bərpası, qorunması, eləcə də kino, teatr sahəsindəki məsələlərə, inanıram ki, cənab Prezidentin yeni Mədəniyyət nazirini videoformatda qəbul edərəkən verdiyi tapşırıq və göstərişlərin uyğun ardıcıllıqla həyata keçməsi ilə yeniliklərin birlikdə şahidi olacağıq.

***- Qənirə xanım, işğaldan azad olunmuş ərazilərimizdə qeydiyyata alınan tarixi mədəniyyət abidələri ilə bağlı Mədəniyyət Nazirliyi və abidələri araşdıran ekspertlərin təqdim etdiyi siyahılar arasında kəskin fərqlər var. 1360 abidənin olduğu Şuşada Mədəniyyət Nazirliyi tərəfindən 142 abidənin olduğu deyilir. Bildirilir ki, ümumilikdə isə Dağlıq Qarabağda 2645 abidənin siyahısı Mədəniyyət Nazirliyinə təqdim olunub. Lakin onlardan 700-ə yaxın abidə qeydə alınıb. Bu istiqamətdə vəziyyətin araşdırılması üçün hansı addımlar atılmalıdır? Nəyə görə bu cür fərq yaranıb və necə həll olunmalıdır?***

- Şuşanın düşmən tapdağından azad olunmasından 4 ay kimi vaxt keçib. Şəhərdə minalardan təmizləmə, təhlükəsizlik və möhkəmlənmə tədbirlərinin öncəliklə görülməsi, bunun ardınca inventarlaşdırma, uçot işi və təmir-bərpa prosesinin aparılması təbii ardıcıllıqdır. Cənab Prezidentin Şuşa həssaslığını hər kəs bilir. Ona görə də hansısa siyahılarda fərqlərin olması, yaxud hansısa eksponatın, abidənin uçotunun aparılmaması və sair kimi məsələlərə - mən səlahiyyətli rəsmi qurumların açıqlamalarına üstünlük verilməsinə tərəfdaram. Əlbəttə, zaman içində dəqiqləşdirilmələr aparıla bilər, gələcəkdə - Şuşada həyat normallaşandan sonra, ixtisaslaşmış vətəndaş cəmiyyəti institutlarının da proseslərə cəlb olunması ilə yeni baxış, yeni dəyərləndirmələr aparıla bilər.

Bu gün isə Şuşanın azad olunmasının qüruru içində quruculuq, təmir-bərpa proseslərini aparan müvafiq dövlət qurumlarına mənəvi dəstəyimizi göstərməkdə fayda vardır.

***- Prezidentimiz Şuşanı Azərbaycanın Mədəniyyət paytaxı elan etdi. Abidələrin düzgün qeydiyyatının aparılması, eləcə də tarixi mədəniyyət paytaxtımızın bugünkü vəziyyəti ilə bağlı dünyanın məlumatlandırılması üçün hansı təxirəsalınmaz mədəni tədbirlərin keçirilməsini təklif edərdiz.***

- Bu işlər peşəkar səviyyədə və ali dövlət rəhbərliyinin şəxsi nəzarəti, diqqət-qayğısı ilə əhatə olunub. Cənab Prezidentin bu il, fevralın ilk günü Abşeron Mərkəzi xəstəxanasının yeni inşa edilən binasının açılışında dediyi sözləri xatırlatmaq istərdim: "birinci təhlil aparmalıyıq. Ondan sonra o tarixi binaları bərpa etməliyik, necə bərpa etməliyik, bunu mən də deyə bilmərəm, mütəxəssislər deməlidir, biz indi cəlb etmişik. Misal üçün, Xurşidbanu Natəvanın sarayı necə bərpa edilməlidir? Çünki onun bir divarı var, qalan divarlar uçub. O, hansı formada bərpa edilməlidir? Onun yenidənmi eyni stildə qalan o uçan hissəsi tikilməlidir, yaxud da elə formada tikilməlidir ki, oraya gələn görsün ki, bax bu, buradan dağılıb, oradan sökülüb. Bu suala mənim cavabım yoxdur, çünki mən mütəxəssis deyiləm. İndi müxtəlif yerli, xarici şirkətlər məşğul olurlar artıq bu işlərlə". - Yəni Şuşa ilə bağlı, eləcə də, işğalın, erməni vandallığının ağır izlərini daşıyan digər şəhər-rayonlarımızla bağlı hər bir məsələni peşəkarcasına, yüz ölçüb-bir biçərək etməmiz gərəkdir.

***- Ölkədə Mədəniyyət evlərinin, kitabxanaların bu günkü durumu və gələcək taleyi barədə nələri söyləmək olar? Bir də, belə qeydlər var ki, teatr xadimləri, aktyorlar pandemiya dövründə çox çətin vəziyyətlə üzləşiblər. Sizcə, kino və tetar aktyorlarına dövlət dəstəyinin olması və təşkili üçün hansı addımlar atılmalıdır?***

- Doğrusu, bu sualların Mədəniyyət Nazirliyinin müvafiq qurumları tərəfindən cavablandırılması daha yaxşı olardı. Heç şübhəsiz ki, mədəniyyət evlərinin, kitabxanaların bugünü və gələcəyi, habelə teatrlarımızın, teatr xadimlərinin, aktyorların pandemiya dövrü gerçəkliklərindən irəli gələn vəziyyəti dövlətimizin müvafiq qurumlarının, hökumətimizin diqqətindədir.

"Covid-19" pandemiyası yalnız bizimçün deyil, bütün dünya üçün yeni reallıqlar yaradıb. Dövlətimizin həyata keçirdiyi işlər pandemiyadan mümkün olan ən az itkilərlə çıxmaq və mümkün olan ən yaxşı nəticə yönümlüdür. Ən başda insanlarımızın sağlamlığı gəlir. Ötən ilin bu vaxtlarından tətbiq edilməyə başlayan məhdudiyyətlərdə davranmaq, əhalinin aztəminatlı hissəsinə dəstək durmaq və s. istiqamətlərdə artıq bəlli bir təcrübə əldə edilib. Bu nəticələr üzərindən çıxış edərək, deyə bilərik ki, mədəniyyət işçiləri də daxil olmaqla, bütövlükdə əhalinin virusdan qorunması, yoluxanların müalicəsinin təşkili, sosial müdafiəsi və sair dövlətimizin təxirəsalınmaz öncəlikləri sırasında olub, bundan sonra da belə olacaqdır. Ümumiyyətlə, istər pandemiya dövründə, istərsə də, postpandemiya dövründə, özəlliklə mədəniyyətimizin bəzi sahələri var ki o sahələrə dövlət dəstəyinin daha da artmasına ehtiyac var və biz həmin məsələlərlə bağlı bir neçə dəfə mədəniyyət nazirimiz hörmətli Anar Kərimovla, digər müvafiq qurumların rəhbərləri ilə müzakirələr aparmışıq, belə müzakirələrimiz indi də davam edir.

Deyə bilərəm ki, kino sahəsində də böyük islahatlara ehtiyac var və yeni mədəniyyət strategiyasında, Mədəniyyət Nazirliyinin nəzərdə tutduğu tədbirlərdə bu məsələ xüsusi diqqət mərkəzindədir. O cümlədən teatrlarımızın daha da inkişafı, daha aktual mövzulu əsərlərin repertuara daxil edilməsinin genişlənməsi, daha çox tamaşaçının teatrlara cəlb olunması mövzusu da diqqət mərkəzindədir. İnanırıq ki, postpandemiya dövründə bu istiqamətlərdə işlər sürətlənəcək.

Ən vacib məsələlərdən biri istedadlı yaradıcı gənclərə dəstəyin daha da artmasıdır. Biz gənc rəssamlarla, xüsusilə bölgələrdə çalışan yaradıcı gənclərlə tez-tez görüşürük, onlar tərəfindən qaldırılan bir sıra vacib təkliflərlə bağlı Mədəniyyət Nazirliyi ilə, digər müvafiq qurumlarla sıx müzakirələr aparırıq. Eləcə də gənc bəstəkarların qaldırdığı məsələlər ətrafında müvafiq qurumlarla müzakirələrimiz davam edir.

Bizim üçün ən vacib məsələlərdən biri tarix-mədəniyyət abidələrimizin qorunmasıdır. Bu istiqamətdə, cənab Prezidentin tapşırıqları əsasında çox ciddi addımların yaxın zamanlarda hər birimiz şahidi olacağıq. Mədəniyyət Nazirliyi tərəfindən bu yöndə önəmli işlər planlaşdırılır. Ən vacib məqamlardan biri də müəllif hüquqları ilə bağlı yaradıcı şəxslərin üzləşdiyi bir sıra problemlərdir ki, bu məsələ ilə bağlı da müvafiq qurumlarla geniş fikir mübadiləsi aparırıq.

***✍ Tahirə Qafarlı***

◂ əvvəli 1-ci səhifədə

Son günlər bütün ölkələrdə, o cümlədən Azərbaycanda koronavirusa yoluxanların sayında ciddi artım müşahidə edilir. Düzdür, artıq bir ildən çoxdur ki, COVID-19 pandemiyası dünya üçün yeni qaydalar diktə edir, ölkələr, insanlar da koronavirusun və sərt karantin rejiminin tələb etdiyi qaydalarla yaşamağa alışmağa çalışırlar. Lakin bütün qaydaların tətbiq edilməsinə baxmayaraq müəyyən yumşalmalardan sonra bəzi ölkələr bu virus qarşısında yenidən aciz durumda qalıb. Hazırda



# Xüsusi karantin rejiminin müddəti uzadıldı

infeksiyanın yenidən güclənməsi, yoluxma hallarının rekord həddə çatması da məhz yumşalmalarla bağlıdır. Bunu nəzərə alan əksər ölkələr yenidən qapanma ilə bağlı qərarlar qəbul etmək məcburiyyətində qalıblar.

### Bəzi ölkələr karantin rejimini sərtləşdirirlər

**Məsələn, Norveçdə koronavirusa yoluxanların sayındakı artım yenidən antirekord müəyyənləşdirib. Bu barədə krallığının səhiyyə naziri Bent Höye bildirib: "Biz üçüncü koronavirus dalğası ilə üz-üzəyik, amma inanıram ki, bunun öhdəsindən də gələ biləcəyik.** Koronavirusun ən yoluxucu ştamminin xüsusilə Osloda yoluxma sayında kəskin artıma gətirib çıxardığını görürük. Buna görə də hazırda Oslo, Viken və bəzi bölgələrdə tətbiq edilən sərt tədbirləri bütün ölkə üzrə tətbiq etmək lazımdır".

Bolqarıstanda isə koronavirus pandemiyası ilə əlaqədar 10 gün müddətinə ümummilli karantin rejiminin tətbiqi ilə bağlı artıq qərar qəbul olunub. Bunu ölkənin səhiyyə naziri Kostadin Angelov deyib.Karantin martın 22-dən etibarən qüvvəyə minəcək. Nazir bildirib ki, koronavirusdan ölüm hallarına görə Bolqarıstan Avropa ölkələri arasınsda dördüncü yeri tutur. Qeyd edək ki, bu günədək ölkədə 290 mindən çox şəxs koronavirusa yoluxub, 11 715 nəfər ölüb.

Almaniyada karantin rejiminin dördüncü mərhələdə ləğv ediləcəyi planlaşdırılsa da, görünür, onun müddəti yenidən uzadılacaq. Bu, əhalinin koronavirusa yoluxma statistikasının pisləşməsi ilə əlaqədardır.

Qeyd edək ki, növbəti bazar ertəsi federal hökumət Almaniyada vəziyyətin müzakirəsini keçirəcək. Əslində, martın 22-dən bu ölkədə küçə restoranlarının, həmçinin teatrların, konsert zallarının, opera teatrlarının və kinoteatrların açılması planlaşdırılırdı. Amma, infeksiya göstəricilərinin pisləşməsi və "AstraZeneca" vaksini ilə bağlı qeyri-müəyyənlik hökuməti bu istiqamətdə görəcəyi işləri dayandırmağa məcbur edib. Görünür, karantin rejiminin müddətini yenidən uzatmaq lazım gələcək. Rumıniyanın fövqəladə hallarla əlaqədar milli komissiyası isə ölkədə fövqəladə vəziyyəti aprelin 14-dək uzadıb. Rumıniya Səhiyyə Nazirliyinin açıqlamasına görə, qərara əsasən saat 22:00-dan 05:00 kimi hərəkət məhdudlaşdırılır. Dağlıq turizm məkanları bağlanılır. Təhsil sistemində məhdudiyyətlər saxlanılır.

Qeyd edək ki, Rumıniya Avropa İttifaqı ölkələri arasında əhalinin peyvəndləmə səviyyəsinə görə irəlidə olsa da, ölkədə koronavirus xəstəliyi geniş yayılmağa başlayıb və ümumi xəstələrin sayı 870 minə yaxınlaşır. Hər gün 5000-7000 min nəfər koronavirusa yoluxur.

Özbəkistanda karantin rejimi martın 16-dan yenidən gücləndirilib. Özbəkistan Səhiyyə Nazirliyinin məlumatına görə, Daşkənddə COVID-19-a yoluxma halı günbəgün artır. Martın 16-dan şəhərə maskasız çıxan adamlar 1,2 milyon sum (təxminən 115 dollar) dəyərində cərimə olunurlar. Karantin rejimi bazarlarda və ticarət mərkəzlərində də gücləndirilib. Daşkəndin Mirzə Uluqbek, Çilanzar və Yunusabad rayonlarında yoluxma sayı daha çox olduğundan bu rayonların bütün məktəbləri 14 gün müddətinə onlayn tədris sisteminə keçirilib. Koronavirusla bağlı Xüsusi Respublika Komissiyasının yaydığı məlumata görə, bu ayın sonunadək paytaxtda epidemioloji vəziyyət sabitləşməsə aprelin 1-dən respublikada kütləvi tədbirlərin keçirilməsi qadağan ediləcək.

### Ölüm faizi Qərbi-Sakit Okean regionunda daha yüksəkdir

**Yeri gəlmişkən, ötən həftə dünyada koronavirusa 3 milyon yoluxma halı qeydə alınıb ki, bu da öncəki yeddi günlə müqayisədə 10 faiz çoxdur. Bu barədə məlumat Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Cenevrədə dərc olunan həftəlik epidemioloji bülletenində yer alıb.** Sənəddə vurğulanır ki, dünyada yeni yoluxma hallarının sayı artmağa davam edir: "Ötən həftə 3 milyondan çox yeni yoluxma ilə bağlı məlumat daxil olub ki, bu da öncəki həftə ilə müqayisədə 10 faiz çoxdur".

Ümumdünya Səhiyyə Təşkilatı yanvar ayının əvvəlində COVID-19 infeksiyasına yoluxmaların pik həddə (həftə ərzində 5 milyon nəfərə yaxın) çatdığını, lakin fevralın ikinci yarısından təxminən iki dəfə (2,5 milyon nəfər) azaldığını xatırladıb.

ÜST-nin bülleteninə əsasən, martın 8-dən 14-dək dünyada 3 milyon 33 min 213 yoluxma və 58 min 698 ölüm faktı qeydə alınıb. Ötən həftə yoluxma hallarının artımı əsasən Cənub-Şərqi Asiyada (19 faiz), Qərbi-Sakit Okean regionunda (19 faiz) və Şərqi Aralıq dənizi bölgəsində (14 faiz), həmçinin Şimali və Cənubi Amerikada (13 faiz) müşahidə olunub. Qərbi-Sakit Okean regionunda və Şərqi Aralıq dənizi bölgəsində ölüm halları müvafiq olaraq 14 faiz və 7 faiz artdığı halda, digər regionlarda bu göstərici azalıb. Ölüm hallarının ümumi azalma göstəricisi həftə ərzində 3 faiz aşağı düşüb.

Qeyd edək ki, pandemiyanın statistikasını aparan Worldometer saytının məlumatına əsasən, indiyədək dünyada 121 milyon 370 mindən çox yoluxma və 2 milyon 684 mindən çox ölüm faktı aşkarlanıb, 97 milyon 861 min nəfər COVID-19 xəstəliyindən sağalıb. Müalicəsi davam edən 20 milyon 823 min nəfərdən 88 min 828 nəfərin vəziyyəti ağır qiymətləndirilir.

### Britaniya ştammının simptomları nədir?

**Son bir neçə həftədir ki, Azərbaycanda da koronavirusa yoluxma hallarının yenidən artması müşahidə olunur. Ölkəmizdə aparılmış genom analizləri nəticəsində 3 nəfərdə yeni növ Britaniya ştammına tutulma halı da müəyyən edilib.** Milli Hematologiya və Transfuziologiya Mərkəzindən APA-ya verilən məlumata görə, aparılan analizlər nəticəsində ikisi kişi, biri qadın olmaqla 1977, 1961, 1992-ci il təvəllüdlü üç nəfərdə virusun Britaniya ştammı aşkarlanıb. Həmin şəxslərdən birinin Ukraynada yoluxduğu müəyyən edilib. Qeyd edək ki, koronavirusun Britaniya ştammı adlanan yeni növü ilk dəfə 2020-ci ilin sentyabrında Kent qraflığında müəyyən olunub. Qısa zaman ərzində yeni ştamm sürətlə yayılaraq Britaniyanın bütün ərazilərində aşkarlanıb. Son statistikalara görə, Britaniya ştammı 110-dan çox ölkədə aşkarlanıb. Bir sıra ölkələrdə, məsələn, Estoniya isə bu ştammın yoluxma sayına görə koronavirusun ilkin növünü ötdüyü bildirilib. ABŞ-da statistik hesablamalara görə, ümumi yoluxma hallarının 25-30 faizini virusun bu növü təşkil edir. Alimlər bu ştammın əvvəlki növlərlə müqayisədə 50 faiz daha yoluxucu və 65 faiz daha öldürücü olduğunu müəyyənləşdirib.

Hazırda Azərbaycana qonşu olan Gürcüstan, İran və Türkiyədə də yeni ştammlar aşkarlanıb.Türkiyədə indiyədək 41 mindən çox insanda koronavirusun Britaniya ştammına yoluxma faktı qeydə alınıb. Son məlumatlara görə, Gürcüstanda 31, İranda isə 62 nəfərdə bu növə yoluxma halı aşkarlanıb. Britaniya ştammı əsasən öskürək, güclü yorğunluq, boğaz və əzələ ağrıları kimi simptomlarla xarakterizə olunur. Bununla yanaşı, Böyük Britaniyanın Milli Statistika Xidməti müəyyənləşdirib ki, yeni ştammda iybilmə qabiliyyətinin itirilməsi "Çin" variantına nisbətən özünü daha zəif büruzə verir.Təşkilat İngiltərədə koronavirusa yoluxmuş 6 min təsadüfi sakindən götürülən məlumatlar əsasında bu nəticəyə gəlib. Yoluxanların çoxunda bu üç simptomdan ən azı biri aşkarlanıb.

Tədqiqatlar zamanı 2020-ci il noyabrın ortalarından 2021-ci il yanvarın ortalarınadək xəstələnən insanlardan götürülən analizlərin nəticələri nəzərə alınıb. Yeni ştamma yoluxmuş 3,5 min nəfərlik qrupda 35 faiz öskürəkdən, 32 faiz yorğunluqdan, 25 faiz əzələ və ümumən bədəndəki, 21,8 faiz isə boğazdakı ağrılardan şikayətlənib. Xəstələrin 16 faizində dadbilmə, 15 faizində isə iybilmə qabiliyyəti itib. Başağrısı, tənəffüs, ishal və qusma ilə bağlı məlumatlar eyni olub. İngiltərədə aparılan son elmi tədqiqatda isə göstərilir ki, virusun mutasiyaya uğramış formasının yoluxdurma əmsalı SARS-CoV-2-in yoluxdurma əmsalından minimum 35 faiz daha böyükdür. Eyni zamanda, mutasiya olunmuş viruslu xəstənin ətrafındakıları yoluxdurma faizi 15 faizdir.

### Sərt karantin, SMS icazə qaçılmazdır

**Təbii ki, mövcud vəziyyət ölkədə karantin rejiminin yenidən sərtləşdirilməsi məsələsini gündəmə gətirib.** Mütəxəssislər hesab edirlər ki, xəstəliyin nəzarətdən çıxmaması üçün mütləq karantin rejimi sərtləşdirilməli və Novruz bayramında kütləvi təmaslar maksimum azaldılmalı, rayonlara gediş-gəliş məhdudlaşdırılmalıdır.

■ **Mövzu ilə bağlı hafta.az-a danışan Azərbaycan Tibb Universitetinin Yoluxucu xəstəliklər kafedrasının dosenti, infeksionist Könül Cəfərova da hazırda vəziyyətin ciddi olduğunu təsdiqləyib.** Onun sözlərinə görə, yoluxma ilə bağlı rəqəmlərin sürətlə artması karantin rejiminin sərtləşdirilməsini qaçılmaz edir: "Əslində bayram ərəfəsində belə bir vəziyyətin ortaya çıxması yaxşı hal deyil. Biz də istəyərik ki, əvvəlki həyatımıza qayıdaq, pandemiyanın yaratdığı məhdudiyyətlərdən xilas olaq. Bu xəstəlik çoxalıbsa, biz karantinə getməyə məcburuq. Hesab edirəm ki, indiki vəziyyətdə sms icazə də bərpa olunmalıdır. Başqa bir variant yoxdur. Bu xəstəliyi daha çox yayan kimlərdir? Təbii ki, xəstəliyin daşıyıcısı olan insalardır ki, onlarda da heç bir siptom müşahidə edilmir. Yalnız qan analizləri nəticəsində biz bu şəxslərin koronavirus infeksiyası daşıyıcısı olduğunu müəyyən edirik. Ona görə də biz həmin şəxsləri "gəzən təhlükə" adlandırırıq. Britaniya ştammı da bu virusun daha tez, sürətlə yayılan növüdür. Klinika da sürətli gedir, ağırlaşmalar həddindən artıq çox olur. Bu baxımdan insanlar maksimum şəkildə diqqətli olmalıdırlar, narahatçılıq hiss edəndə dərhal həkimə müraciət etməlidirlər. Düşünməməlidirlər ki, narahatçılıqları soyuqdəymə ilə bağlıdır. Bəzən belə hallar olur ki, insanlar həkimə gec müraciət edirlər, özləri ev şəraitində müalicəyə başlayırlar, vəziyyət ağırlaşanda isə həkimə müraciət edirlər. Əslində, son vaxtlar ölüm sayında artım məhz bununla bağlıdır. Vətəndaş zamanında həkimə müraciət edərsə, ona daha dəqiq diaqnoz təyin olunar və vəziyyətdən asılı olaraq evdə və ya xəstəxanada müalicə alar. Digər tərəfdən, biz karantin qaydaları yumşaldılarkən unutmamalıyıq ki, hələ də koronavirusla mübarizə aparırıq. Koronavirusdan qorunmanın qızıl qaydalarına həmişə riayət etməliyik. Məsafə saxlamalı, maska taxmalı, kütləvi təmaslardan çəkinməli, gigiyenik qaydalara uyğun davranmalıyıq. Əks halda, biz ciddi təhlükə ilə üz-üzə qala bilərik".

***✍ Sevinc***

## Media

# Mediamız daxildə də, xaricdə də güclü olmalıdır



**Əvəz Zeynallı,**
Xural TV-nin baş redaktoru

***Vətən Müharibəsində əldə olunan qələbəmiz bütün sahələr üzrə bütün fəaliyyət növlərinin yenidən format olunması zərurəti ilə çıxış edir. Proseslər medianın üzərinə xüsusilə böyük məsuliyyət yükü qoyur. Torpağının erməni vəhşiliyinə məruz qoyularaq tamamilə dağıdılması faktını gözü ilə izləyən mediamız bu prosesin ədalətli şəkildə dünyaya təqdim olunmasında hansı mühüm rola malik olduğunu bir daha anlamalıdır. Bunun üçün isə ona lazım olan alət əlində olan informasiya resurslarıdır. Bu resurslar hansı halda və necə işləyə bilər? Bu və ya digər məsələlər ətrafında "Həftə içi"nə müsahibə verən müstəqil jurnalist Əvəz Zeynallı Ağdama edilən son media turdan başlayaraq görünən problemlərə diqqət çəkib.***

***- Əvəz bəy, Ağdama təşkil olunan mediaturu necə dəyərləndirirsiniz, təəssüratlarınızı bölüşərdiniz...***

- Ağdama təşkil olunan mediatur vaxtında idi, hələ bir az da gecikmişdi. Medianı idarə edən insanların öz gözləri ilə hadisələri və məkanı görmələri çox önəmli idi.

Mən, ümumiyyətlə, Qarabağ torpaqlarını görməmişdim. Bu səfər mənə çox təsir elədi, çox sarsıldım. Söz xiridarları, illərini mediaya verən peşəkarlar orada idilər.

Orada canlı yayım verirdim, kimə yaxınlaşırdım, gördüm gözləri dolub və "Sözün bitən yeridir, sözüm yoxdur", - deyirdi. Bu "sözüm yoxdur" deyən adamlar illərdir, Azərbaycan mediasını təsis edən, yaradan adamlardı. Ona görə də məncə mediadan, siyasətçilərdən sonra ora bəstəkarların, yazarların, şairlərin, rəssamların və sairin getməsi lazımdır. Azərbaycan xalqının çox misilsiz tarixidir o. Erməni millətinin gerçək simasını, sifətini göstərən bir tarixdir.

***- Necə hesab edirsiniz, Azərbaycan mediası, ümumilikdə, informasiya məkanımız Azərbaycan həqiqətlərini müxtəlif forma və üsullardan istifadə edərək nə dərəcədə yaya bilir, təbliğ edir?***

- Azərbaycan mediası, ümumilikdə informasiya məkanımız Azərbaycan həqiqətlərini dünyaya yaymaqda yenə çarəsizdir, zəifdir. İllər əvvələ nisbətən bəlkə bəzi yeni texnologiyaların da səbəbi ilə imkanlar dəyişib. İnanın ki, biz dünyada real və ciddi işlər görməmişik.

Dünyanın Kanadası, Amerikası, Almaniyası, Fransası var. Biz cəmiyyətlərin içərisinədək girməliyik. Necə ki, ermənilər çox cidd bir şəkildə ailələrə, evlərə, qurumlara girirlər, o cəmiyyətlə üzləşirlər. Həmin cəmiyyətlə iç-içə olurlar və istədiklərini edə bilirlər. Ona görə də Azərbaycan mediasının imkanlarını çox genişləndirməliyik, yerlərdə çalışmalıyıq. Tez-tez Türkiyədə, İstanbulda səfərlərdə oluram. Orada ermənilər bizdən güclüdürlər, qol-budaqlıdırlar, zəngindirlər. İstanbulun ən möhtəşəm səmtləri onlarındır. Ən möhtəşəm səmtlərində, lap elə adalarında, Taksimdə, şəhərin ən yaxşı yerlərində kilsələri, torpaqları, yaşayışları var. Bax, o dərəcədə önəmlidir. Biz yeni informasiyanın dəstəyi ilə ölkənin reallıqlarını dünyaya tanıda bilməliyik. Bunun üçün də geniş, planlı bir iş lazımdır. Azərbaycan mediası daxildə də, xaricdə də güclü olmalıdır. Biz yalnız o zaman çox güclü və əsaslı təbliğatlarla ölkənin reallıqlarını əks etdirə biləcəyik.

***- Vaxtilə işğalda qalan rayonlarımız, kəndlərimiz, eləcə də o kəndlərdə baş verən erməni vəhşilikləri, qətliamları haqqında internet resurslarında lazımi məlumatlar varmı?***

- Ənənəvi məlumatlar var, tam məlumatlar yoxdur. O sahədə də zəif işləmişik. Baxın, Qarabağla bağlı nə biz bu məsələləri işləyib resurslara yükləməliyik və dünyanı heyrətə gətirməliyik. Harada hörmətli erməni, cameəsi var, bu faktları çıxarıb ortaya qoymağımız yetərli olacaq ki, onların necə amansız və zalım bir millət olduğunu sübut edək.

Çox təəssüf ki, bu günlərdə lazımi və istənilən səviyyədə resurs, məlumat yoxdur. Məncə, bunu da dövlət səviyyəsində işğaldan azad olunmuş ayrıca bir fəaliyyət proqramı kimi tərtib etmək, xüsusi həvəslə işləmək lazımdır.

> Qəzetlər əvvəlki şöhrətinə qayıtmalıdır, yazılı media öz axarına düşməlidir

> Medianın imkanları, iqtisadi əsasları qorunmalıdır

> Media, jurnalistlər çox ciddi imtiyazlardan da istifadə etməlidir



yazırsan, ermənin adına çıxır. O sahədə də ayrı-ayrı, bütün bölgələrdə hər kəndin hər məhəlləsinin evinə qədər vətəndaş təşəbbüskarlığını, vətəndaş jurnalistikasını inkişaf etdirmək lazımdır.

İndi Qarabağda torpaqlarımızı işğaldan azad eləmişik, bir azdan oraları tikib yenidən quracağıq. Oralarda bəzi yerlər açıq hava altında muzey kimi fəaliyyət göstərməlidir. Şəhərin bəzi önəmli yerlərindəki dağıntılar eləcə saxlanılmalıdır. Eyni zamanda dünyanın hər yerində informasiya resursları, saytlar tərəfindən bu sahə ayrıca, məxsusi işlənməlidir.

Addım-addım, küçə-küçə, ev-ev

***- Mətbuatda real durum necədir və hansı islahatlara ehtiyac var?***

- Real durum çox acınacaqlıdır, mətbuat yenidən formalaşdırılmalıdır. Qəzetlər əvvəlki şöhrətinə qayıtmalıdır, yazılı media öz axarına düşməlidir, medianın satış bazarı düzəldilməlidir. Kimsəyə elə gəlməsin ki, print media arxa plandadır, internet resursları öndədir. Elə deyil. Dünyada yazılı mətbuat da, onlayn media da öz yerindədir. Azərbaycanda yeni peşəkar və əsasən tənqidi media inkişaf etdirilməlidir. Çox işlərimiz var.

***- Əvəz bəy, medianın ictimai fikrin formalaşması və nəzarət funksiyasının yüksəldilməsi üçün daha çox nəyə ehtiyacı var? Qanuna, yoxsa öz mahiyyətini düzgün anlaya bilməsinə?***

- Bu istiqamətdə çox yaxşı qanun tərtib eləmək olar, amma qanunların olması əsas deyil. Bizdə çox gözəl qanunlar var ki, işləmir. Yeni media təfəkkürü formalaşmalıdır və insanlar qanunu normal tətbiq etməlidirlər, insani münasibətlər düzəlməlidir.

Redaktorlar arasında mediada olan çəkişmələr ortadan qaldırılmalıdır, həmrəylik yaradılmalıdır. Media bazarı stabilləşməlidir, ictimai maraq ön plana keçməli, reklamın yolu açılmalıdır, hər kəs öz reklamını alıb işini görməlidir.

İctimai fikrin formalaşması üçün yalnız azad, tənqidi, müstəqil medianın olması lazımdır. Bunun başqa bir yolu yoxdur.

***- Mətbuat Şurası medianın işinə nəzarəti necə həyata keçirə bilir?***

- Mətbuat Şurası, çox təəssüf ki, yarandığı gündən özünü doğrultmadı. Qurum Şuraya üzv olmayan qəzetlər haqqında qərarlar verdi.

Onların fəaliyyətini çətinləşdirdi. Ona görə də Mətbuat Şurasının qurultayı keçirilməli, adı və idarə heyətinin üzvləri tamamilə dəyişməlidir. Mətbuat Şurasını qarşılıqlı inamın hakim olduğu özünütənzimləmə qrupuna çevirmək olar və mümkündür.

***- "Bu gün bizdə, sanki mətbuata sahiblənmək istəyənlər var" - fikri nə dərəcədə düzgün yanaşmadır və media nə dərəcədə öz axarı ilə inkişaf edə bilir?***

- Müəyyən islahatlar aparılsa, heç kim müstəqil mediaya sahiblənmək iddiasına düşə bilməz. Bu gün elə təşəbbüslər var. Müəyyən dərəcədə onlayn internet televiziyalarının inkişafı ilə bağlı bəzi hərəkətlənmələr mövcuddur.

Müəyyən monopoliya yaratmaq cəhdləri, sahiblənmək istəyi ola bilər. Amma qanunlar stabilləşincə, media müstəqil və azad nəfəs aldıqca, heç kim ona sahiblənə bilməz.

Zatən müstəqil və tənqidçi media ona görə lazımdır. O, öz axarı ilə normal inkişaf etməlidir. Bunun üçün medianın imkanları, iqtisadi əsasları qorunmalıdır.

***- Medianın İnkişafı Agentliyi yaranandan belə bir fikirlər səslənir ki, jurnalist vəsiqələri bundan sonra qalaqrammalı olacaq. Yəni qalaqramsız vəsiqələr qəbul edilməyəcək. Buna fikriniz nədir?***

- Vahid media kart vəsiqələrinin verilməsi ilə bağlı mətbuatda xəbərlər gedib. Lakin ilk öncə qanun layihəsi mətbuata təqdim olunsun, ondan sonra bu barədə fikirlərimizi bildirəcəyik. Qanun jurnalistlərin lehinə və mediaya dəstək mənasında qəbul olunmalıdır.

Qanun məhdudlaşdırıcı olacaqsa, jurnalistlərin qarşısına çətin tələblər qoyacaqsa və reallıqla bir-birinə ziddiyyət təşkil edəcəksə, o qanun işləməyəcək. Və sovet dövrünün son, müstəqilliyimizin ilk illərində və demokratik ölkələrdə də olduğu kimi, media, jurnalistlər çox ciddi imtiyazlardan da istifadə etməlidir.

***- Mətbuat olaraq öz işinizdən razısınız və niyə?***

- Mətbuat olaraq öz işlərimizdən razı deyilik, heç bir hədəfimizə çatmamışıq. Biz indiyə qədər yalnız məhkəmə, həbs görmüşük.

Mətbuat, təbii ki, inkişaf eləməlidir. Biz hələ neyləmişik ki, işimizdən də razı olaq. Dünya standartlarında mətbu qurumlar qurmalıyıq və işçilər çox gözəl şəraitdə işləməli, yaşamalı, ev almalıdır.

***- Təklifləriniz nədir?***

- Elə müsahibə boyu suallara verdiyim cavablarda təkliflərimi, təxminən, verdim.

*Tahirə Qafarlı*

# Dövlət sosial sığorta şəhadətnaməsi ləğv edilir



***Azərbaycanda dövlət sosial sığorta şəhadətnaməsi ləğv edilir. Bununla bağlı Əmək Məcəlləsinə dəyişiklik edilir. Dəyişikliyə əsasən, dövlət sosial sığorta şəhadətnaməsinin nömrəsi sözü sosial sığorta nömrəsi ilə əvəz edilir.***

Qanuna dəyişiklikdə qeyd olunur ki, Azərbaycan Respublikasında sosial sahədə aparılan islahatlar nəticəsində sosial sığorta, fərdi uçot və pensiya təminatı sahəsindəki funksiyaların bir-birini tamamladığı vahid dövlət pensiya təminatı sistemi formalaşdırılmışdır. Həmin sistemin fəaliyyəti müasir tələblər səviyyəsində təşkil olunmuş, o cümlədən hər bir sığortaolunana fərdi şəxsi hesab açılaraq ödənilən məcburi dövlət sosial sığorta haqlarının bu hesablarda fərdi uçotunun aparılması, vətəndaşların pensiya hüquqlarının dəyər ifadəsində həmin uçotun məlumatları əsasında müəyyənləşdirilməsi mexanizmi yaradılmışdır.

Bu sahədə islahatların davamı olaraq fərdi uçot sistemində qanunvericilik bazasının təkmilləşdirilməsi və sadələşdirilməsi, eləcə də müasir dövrdə öz aktuallığını itirmiş müddəaların qanunvericilikdən çıxarılması zərurəti yaranmışdır. Belə ki, qanunvericilikdə mövcud olan bəzi istisnaların mövcudluğu, fərdi uçot sisteminin bəzi proseslərin bütövlükdə elektronlaşmasına mane olur.

Bu baxımdan, "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" Azərbaycan Respublikası Qanununun bəzi maddələrinə dəyişiklik edilməsi Azərbaycan Respublikasının Əmək Məcəlləsinin müvafiq maddələrində də dəyişikliklərin edilməsi zərurətini yaradır. Qeyd olunanlara əsasən vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə hazırlanmış dəyişiklik fərdi uçot sistemindəki müvafiq məlumatların çevik əldə edilməsini və əlavə xərclərin azaldılmasını nəzərdə tutur.

# "Nar" və "YAŞAT" Fondundan şəhid ailələrinə Novruz sovqatı



**"Nar" "YAŞAT" Fondu və "Bravo" marketlər şəbəkəsinin birgə təşkilatçılığı ilə şəhid ailələri və ağır yaralanan qazilər üçün həyata keçirdiyi aksiyaya qoşulub.**

Belə ki, müxtəlif şirkətlərin dəstəyi ilə reallaşan aksiya çərçivəsində şəhid ailələri və tibb müəssisələrində yataq şəraitində müalicə alan ağır yaralı qazilərə Novruz sovqatlarının çatdırılması nəzərdə tutulur. Məqsəd şəhid ailələri və qazilərin daima, o cümlədən Novruz bayramı ərəfəsində də diqqət mərkəzində saxlanılması, onların sosial qayğı ilə əhatə olunmasıdır.

Qeyd edək ki, 44 günlük Vətən müharibəsi dövründə "Nar" cəbhə xətti ilə sərhəddə olan abunəçilərinə dəstək olub. Müharibədən sonra həm şəhid ailələrinə, həm də qazilərə xüsusi diqqətin göstərilməsi "Nar"ın sosial layihələrinin əsas istiqamətlərindən biridir.

# "Bakcell" şirkəti "YAŞAT" Fondunun daha bir təşəbbüsünə qoşulub

**"YAŞAT" Fondunun və "Bravo" marketlər şəbəkəsinin birgə təşkilatçılığı ilə şəhid ailələri və tibb müəssisələrində yataq şəraitində müalicə alan ağır yaralanan qazilərimizə Novruz sovqatlarının paylanılması təşəbbüsünə Bakcell şirkəti də qoşulub.**



Layihə çərçivəsində tərəfdaş təşkilatların dəstəyi ilə hazırlanmış bayram sovqatlarından ibarət qutuların şəhid ailələri və yataq şəraitində müalicə alan ağır yaralanan qazilərimizə çatdırılması nəzərdə tutulur. Məqsəd müvafiq kateqoriyadan olan şəxslərin daim, o cümlədən Novruz bayramı ərəfəsində diqqət mərkəzində saxlanılması, onların sosial qayğı ilə əhatə olunmasıdır.

"YAŞAT" Fondu şəhidlərimizin ailə üzvlərinin və qazilərimizin müraciətlərini diqqət mərkəzində saxlayır, onların müxtəlif ehtiyaclarının qarşılanması üzrə işləri davam etdirir. Qeyd edək ki, "Bakcell"in daxil olduğu "NEQSOL Holding"in tərkibində olan şirkətlər "YAŞAT" Fonduna ümumilikdə 1,2 milyon manat məbləğində vəsait köçürüblər.

Həmçinin, Bakcell şirkəti Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək göstərmək istəyən abunəçilərinə "YAŞAT" fonduna öz balanslarından ianə etmək fürsəti təqdim edib. YAŞAT fonduna edilən ianə üçün göndərilən SMS tamamilə pulsuzdur.



**■ Bu ilin yanvar ayında Türkiyə ərazisi ilə Bakı-Tbilisi-Ceyhan (BTC) kəməri vasitəsilə 18 967 min barel neft nəql edilib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 4,6% azdır.**

Türkiyənin borularla nəqletmə operatoru olan "BOTAŞ" şirkətinin verdiyi məlumata görə, 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə kəmər vasitəsilə Türkiyə ərazisi ilə 19 885 min barel neft nəql edilib. Xatırladaq ki, ötən il Türkiyə ərazisi ilə BTC kəməri vasitəsilə 208 064 min barelə yaxın neft nəql edilib ki, bu da 2019-cu ötən ilin göstəricisi müqayisədə 11,5% azdır. Qeyd edək ki, BTC kəməri ilə Azərbaycanın "Azəri-Çıraq-Günəşli" yataqlarında hasil edilən neft idxal edilir. Bundan başqa, kəmər vasitəsi ilə digər istehsalçıların nefti də Türkiyə ərazisinə göndərilir.




**■ Ağdam Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən işğaldan azad olunmuş, lakin minalardan tam təmizlənməmiş əraziyə keçməyə cəhd göstərən şəxslər müəyyən edilib.**

Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Bərdə regional qrupundan hafta.az-a verilən məlumata görə, Ağdam RPŞ-nin əməkdaşları tərəfindən həyata keçirilmiş tədbirlər nəticəsində işğaldan azad olunmuş Ağdam rayonun ərazisinə nəzarət postlarından kənar yollarla daxil olmağa cəhd göstərən 2 nəfər saxlanılaraq polis şöbəsinə gətiriliblər. Araşdırmalarla onların Ağcabədi rayon sakinləri Elvin Şükürov və Dayandur Quliyev olduqları müəyyən edilib. Adıçəkilən şəxslər barəsində qanunamüvafiq tədbirlər görülüb.



**■ Bakının Baş planının aidiyyəti orqanlarla razılaşdırılması son mərhələdədir və təsdiq olduqdan sonra, müvafiq sənəd komitənin rəsmi saytında yerləşdiriləcək.**

Bunu Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədr müavini Dövlətxan Dövlətxanov deyib. Onun sözlərin görə, fərdi şəkildə tikilən evlərin yerində yeni bina tikilməsi ciddi məsələlərdəndir və bu, mülki, torpaq və digər qanunvericiliklə uzlaşmalıdır. "Baş planda şəhərsalma nöqteyi-nəzərdən çoxmənzilli, çoxmərtəbəli və yaxud orta mərtəbəli binaların yerləri göstərilməyib. İnvestorlar həmin yerlərdə əraziyə icazə alıb tikinti işlərini həyata keçirə bilər, bir şərtlə ki, o ərazidəki əhali qanunvericiliyə uyğun olaraq köçürülsün və ya yeni mənzillə təmin edilsin", - deyə D. Dövlətxanov qeyd edib.




**■ Bu ilin qalan dövründə büdcə profisitinin kəsrlə əvəzlənməsi pul bazasının artımı ilə müşayiət olunacaq. Bu barədə Azərbaycan Mərkəzi Bankının (AMB) faiz dəhlizi parametrlərinə aid dərc etdiyi məlumatında deyilir.**

"Pul təklifi başlıca olaraq vahid xəzinə hesabının qalığının dəyişməsindən təsirlənir. İlin əvvəlindən pul bazasının azalması müvəqqəti xarakter daşıyır və büdcə profisiti ilə əlaqədardır. İlin qalan dövründə bu profisitin kəsirlə əvəzlənməsi pul bazasının artımı ilə müşayiət olunacaq", - məlumatda bildirilir. Qeyd edək ki, bu ilin yanvar-fevral aylarında Azərbaycanın dövlət büdcəsinin profisiti 559,6 mln. manat və ya ÜDM-in 4,7%-ni təşkil edib.



**■ Martın 18-də Rusiya və Belarusun Hərbi Hava Qüvvələrinin və Hava Hücumundan Müdafiə Qüvvələrinin birgə qərargah təlimləri başa çatıb.**

Təlimlər çərçivəsində Rusiya hava-kosmik qüvvələrinin aviasiyasının Belarus aerodromlarına yerdəyişməsi sınaqdan keçirilib. Təlimlər zamanı Qarabağdakı və Suriyadakı döyüş əməliyyatlarının təcrübəsi də nəzərə alınıb.

Bu barədə Belarus Müdafiə Nazirliyinin məlumatında deyilir. Konkret olaraq təlimlərdə Rusiya-Belarus birləşmiş qoşun qruplaşmasının müdafiə xarakterli əməliyyatlarında HHQ və HHM qüvvələrinin tətbiqinin planlaşdırılması həyata keçirilib.



**■ Koronavirus infeksiyasına qarşı Avropada ilk peyvəndi ixtira edən "Biontech" şirkətinin qurucuları Uğur Şahin və Özləm Türeciyə Almaniyanın ən böyük mükafatı verilib. Türk alimlər Almaniya Federativ Respublikasına xidmətə görə "Şərəf" ordeni ilə təltif olunublar.**

Təltifetmə mərasimində Almaniya Prezidenti Frank-Valter Ştaynmayer və Kansler Angela Merkel də iştirak edib. "İnkişaf etdirdiyiniz peyvənd insanlığa xidmətdir. Hazırda bu səbəbdən buradayıq. Bu peyvənd yalnız insanları qurtarmır, həm də bəşəriyyətin sosial həyatının davamını da xilas edir. Hekayəniz insanlıq üçün ən yaxşı ilham mənbəyidir",- deyə Ştaynmayer təltifetmə mərasimində çıxış edərkən bildirib.

Reportaj

**Xalqımız yüzillərdir baharın gəlişini Novruz Bayramı ilə xüsusi təm-təraqla qarşılayır. Bu bayramın özünəməxsus adət-ənənələri var. Onlardan biri də bər-bəzəkli və bolneməti süfrə hazırlamaqdır. Qədim inanclara görə, bayram süfrəsi nə qədər çeşidli və zəngin olarsa, həmin il bir o qədər bərəkətli keçər. Elə bu səbəbdən də balıq bayram süfrələrinin neməti, ən dadlı təamlarından sayılır. Bəs görəsən, bu Novruzda bayram menyusuna balıq əlavə edə bilmək üçün nə qədər vəsaitə ehtiyac var? Bazarlarda balığa olan tələbat, bayramərəfəsi canlanma, qiymət fərqi və bu kimi digər suallara cavab tapmaq üçün Hafta.az-ın əməkdaşı üz tutdu ölkənin bolmüştərili balıq bazarı hesab edilən "Keşlə bazarı"na. Öncə bir məqamı diqqətinizə çatdıraq ki, bayramöncəsi olmasına baxmayaraq, bazarda bir qədər durğunluq hiss edilirdi.**



# Novruzöncəsi balıq bazarı



## Çeşidlər, qiymətlər, yoxa çıxan nərəkimilər...

Yaxınlaşıb balıq piştaxtalarının arxasında dayanan satıcılarla bir qədər həmsöhbət olduq. Öyrəndik ki, günün bəlli saatlarında satış bir qədər canlanır.

"Bazarda hər növ balıq satılır. Bu ərəfələrdə ən çox alınan balıq növü kütümdür. Qiymətlər münasib, keyfiyyət isə göz qabağındadır. Kütüm və xəşəm dəniz, sazan və belamur isə çaydan tutulub, satışa çıxarılır. Balığın təzəliyi və keyfiyyəti alıcıları qane etməsə, yəqin ki, burada uzun illər fəaliyyət göstərməzdik. Təzə balıq gendən baxanda özünü büruzə verir, gözləri parıldayır".

■ **Görünən odur ki, müsahibimiz Raziyə xanım satışlardan razıdır. Üstəlik, onun sözlərinə görə burada hər satıcının öz müştərisi var.** Necə deyərlər, "Bir alan, bir də alır". Buna səbəb kimi, məhsulun təmiz, təzə və keyfiyyətli olmasını göstərdi. Qiymətlər isə, balığın çəki və növünə görə dəyişir: "Hazırda kütüm balığının 1 kilosu 13-14, farel 11, belamur 7, sazan 7 manatadır. Fərqi yaradan digər meyar onların çay, göl, yaxud dənizmənşəli olmalarıdır. Təbii ki, ən yaxşı balıqlar çay və dənizdən tutulanlardır. Biz nə qədər "çay və dəniz balığı daha keyfiyyətli olur" desək də, indi göl balığının qiyməti onlardan bahadır. Ona görə ki, həmin balıqların saxlanması, yemlənməsi xeyli xərc tələb edir".

Raziyə xanımın sözlərinə görə, Novruz bayramı ərəfəsi müştərilər daha çox ləvəngi bişirmək üçün sazan və kütüm balıqlarına üstünlük verirlər. Bəzən alıcılar elə bizim özümüzlə də "Hansı balıqdan hansı yeməyi bişirmək daha yaxşı olar", - deyə məsləhətləşirlər: "Cənubun zonasının bu bayramda nişanlı qızlara içinə qızıl üzük qoyulmuş balıq ləvəngi aparmaq kimi maraqlı bir adəti də var. Müştərilərin çoxu nisbətən iri və xoşgörünüşlü kütüm balığını "bayramlıq" aparmaq üçün alırlar".

Raziyə xanımla sağollaşıb, yan-yana düzülmüş balıq vitrinlərinə nəzər yetirdik. Burada olduğumuz müddətdə o qədər də müştəri gözümüzə dəymədi. Yanaşı vitrinin arxasında dayanmış satıcıya yaxınlaşıb özümüzü təqdim etdik. Söhbət əsnasında satıcı Çiçək xanım yaranmış vəziyyətdən, müştəri qıtlığından gileyləndi. Deyir alver zəifdir:

"Əvvəlki illərdə bayramərəfəsi, xüsusən də çərşənbələrdə başımızı qaşımağa imkan tapmırdıq. İndi bazarda alıcıdan çox satıcı var". Qiymətlərə gəldikdə isə həmsöhbətimiz bayramqabağı bahalaşma olmadığını bildirdi:

"Elə bayramdan öncə də topdansatış qiymətin üstünə 1-2 manat pul qoyub satmışıq, indi də. Üstəlik, balığı təmizləmək də ödənişsizdir. Başqa yerlərdə onun üçün əlavə ödəniş alınır. İndi işlər yaxşıdır, bolluqdur. Çalışırıq, müştəriləri narazı qaytarmayaq".

Satıcılardan çay və göl balığını necə ayırd edə biləcəyimizi də soruşduq.

Onların sözlərinə görə, bu fərqi balıqların rəngindən də sezmək mümkündür. Məsələn, Kür sazanının qarnının altı, quyruğu qırmızı rəngdə olur. Göl sazanının qarnı və quyruğu ağ, pulcuq rəngi də bir az sarı rəngdə olur.

Balığın təzəliyinə gəldikdə isə, təzə balığın gözləri parlaq və xaricə tərəf, köhnədə isə içəri, el dili ilə desək, batmış vəziyyətdədir. Təzə balığın pulçuqlarına əl vuranda möhkəm və sərt, köhnə balığın pulcuqlarının isə, yumşaq olub əldə qaldığını görə bilərik. Təzə balığın dərisi və əti möhkəm olur. Təzə balığın qəlsəmələri canlı və qırmızıya yaxın rəngdə olur, köhnədə isə rəngi dəyişir. Təzə balığa barmağımızı basanda iz dərhal yoxa çıxır. Köhnə balıqda isə barmaq izinin, batığın qaldığını görmək mümkündür. Ümumiyyətlə, təzə balıq görünüşünə görə müştərini elə uzaqdan çağırır.

Qeyd edək ki, satıcılar bazarda satılan balıqların, əsasən, Neftçala, Salyan və Naxçıvandan gətirildiyini söylədilər. Burada nərəkimilər nəslindən olan beluqa, osetrin kimi növlərə rast gəlinmir. Bu səbəbdən də üz tutduq iri marketlərə. Vitrinlərdə dondurulmuş kiçik balıqlar üstünlük təşkil edirdi. Satıcı bildirdi ki, hazırda osetrini tapmaq elə də asan iş deyil. Satıldığı yerlərə də əsasən Qazaxıstandan gətirilir. Kiloqramı 50 manat olduğu üçün, çox müştəri ümumiyyətlə maraqlanmır. Onsuz da alana sərf etmir. Təmizləyib bişirəndə, balaca bir hissəsi qalır ki, əksər alıcılar buna 50 manat verməyi mənasız hesab edir.

Sonda isə onu deyə bilərik: bayramda süfrənizə düzdüyünüz nemətlərin bolluğundan asılı olmayaraq, qəlbləriniz zəngin, bayramınız mübarək olsun!

✍ Banu

## SUAL-CAVAB

### *Smart sayğacın ekranında Alarm 3, Alarm 5, FO 44 yazılıbsa, hansı addım atılmalıdır?*

- Bunun üçün abonentlər göstərilən təlimatların ardıcıllıqla yerinə yetirmədirlər.

1. Smart tipli sayğac koda düşdükdə ilk öncə kart koda düşmüş sayğaca daxil edilir. Bu zaman sayğacın ekranında olan informasiya avtomatik olaraq həmin abonentin kartının yaddaşına köçürülür və iki siqnal səsindən sonra kart sayğacdan çıxarılır.

2. İstənilən ödəmə məntəqəsində kartın balansına minimum 1 AZN və ya daha artıq miqdarda məbləğ ödənilir.

3. Ödəniş həyata keçirildikdən sonra abonentin mənzilində olan qaz cihazları təhlükəsizlik tələblərinə uyğun olaraq sızma testinin aparılması üçün bağlı vəziyyətdə saxlanılmalıdır.

4. Kart ödəniş həyata keçirmək üçün sayğaca daxil edilir və iki siqnal səsindən sonra kart sayğacdan çıxarılır.

5. Sayğacın üzərindəki göy düymə (klapan aç) 5 saniyə sıxılı saxlanılır.Bu zaman sayğac özü avtomatik olaraq 190 saniyədən geri saymağa başlayır. Göstərilən müddət bitdikdən sonra saygac koddan çıxır və təbii qazın verilişi bərpa olunur. Nəzərinizə çatdırırıq ki, bu əməliyyat üçün heç bir xidmət haqqı tələb olunmur. Sayğacın koddan çıxarılması zamanı ödənilən məbləğ isə abonentin balansına əlavə olunur və istehlakçı həmin məbləğə uyğun təbii qazdan istifadə edə bilər.

---

### *Xarici universitetlərin diplomlarının tanınmasına görə nə qədər xidmət haqqı tələb olunur?*

- Bu məsələ 2020-ci ilin dekabrında baş nazirin "Xarici dövlətlərin xarici təhsilə aid kvalifikasiyalarının tanınması xidmətləri ilə əlaqədar digər xidmətlərin siyahısı və göstərilən xidmətlərə görə ödəniləcək haqların məbləği"nin təsdiq edilməsi barədə qərarında öz əksini tapıb. Belə ki, həmin qərara əsasən, xarici dövlətlərin xarici ali təhsilə aid kvalifikasiyalarının tanınması üzrə sənədlərin qəbulu və ekspertizanın keçirilməsi üzrə bir xidmətin haqqı 250 manat məbləğində, xarici dövlətlərin xarici təhsilə aid kvalifikasiyalarının tanınması haqqında şəhadətnamənin itirilməsi və ya korlanması ilə əlaqədar yenidən verilməsi üçün xidmətin haqqı 20 manat məbləğində müəyyən edilib.

---

### *Fiziki şəxsin nəqliyyat vasitələrini idarəetmə hüququ məhdudlaşdırıla bilərmi?*

- Müvafiq qanunvericiliyə əsasən, verilmiş xüsusi hüquqdan istifadə qaydasını kobud şəkildə və ya müntəzəm pozmağa görə fiziki şəxsin həmin hüququ iki aydan iki ilədək müddətə məhdudlaşdırılır. Nəqliyyat vasitələrini sərxoş halda idarəetmə halları istisna olmaqla, nəqliyyat vasitələrindən əlilliyi ilə əlaqədar istifadə edən şəxslərin nəqliyyat vasitələrini idarəetmə hüququ məhdudlaşdırıla bilməz. Balla qiymətləndirilən xətaların yol verilməsinə görə sürücülər bir il ərzində 10 və daha çox bal topladıqda, inzibati cərimə tətbiq edilmədən onların, nəqliyyat vasitələrini idarə etmək hüququ məhdudlaşdırılır.

---

### *Məzuniyyətdə olan işçiyə əlavə sosial-məişət müavinətləri ödənilə bilərmi?*

- Əmək müqaviləsində və ya kollektiv müqavilədə, həmçinin kollektiv müqavilə olmayan müəssisədə, habelə büdcədən maliyyələşdirilən idarələrin, təşkilatların saxlanması xərclərinin smetasında işçilərə məzuniyyət vaxtı əlavə sosial-məişət şəraitinin yaradılması müəyyən məbləğdə sosial-məişət müavinətinin ödənilməsi, müəssisənin vəsaiti hesabına istirahət-sağlamlıq müəssisələrinə göndərilməsi, eləcə də işçinin ailə-məişət şəraitinin yaxşılaşdırılması üçün digər tədbirlərin görülməsinə maddi yardımın verilməsi nəzərdə tutulmuşdursa, məzuniyyət pulunun ödənilməsi ilə yanaşı müəyyən edilmiş müavinətlər, yardımlar da ödənilir. Müvafiq icra hakimiyyəti orqanı, həmçinin işəgötürən və ya işəgötürənlərin nümayəndəli orqanı işçilərə məzuniyyət vaxtı üçün nəzərdə tutulmuş ödənclərin, yardımların verilməsini tənzimləyən qaydalar hazırlayıb qəbul edir.

---

### *Əlilliyin təyin olunması üçün nə etmək lazımdır?*

- Əlilliyin müəyyən edilməsi üçün vətəndaş yaşayış yeri üzrə poliklinikaya müraciət etm?lidir. Zəruri olan sənədlərin toplanması üçün poliklinika tərəfindən səhiyyə müəssisələrinə göndərişlər verilə bilər. Məlumatlar toplandıqdan sonra müraciət poliklinika tərəfindən elektron qaydada Tibbi Sosial Ekspertiza və Reabilitasiya alt sisteminə göndərilir.

✍ Sevinc


## "Bakcell"in 4G şəbəkəsinə keç və 5 GB İnternet hədiyyə al!

**"Bakcell" şirkəti özünün 4G/LTE şəbəkəsinə keçmək istəyən abunəçilər üçün xüsusi kampaniya elan edib. Belə ki, 3G SİM-kartlarından istifadə edən abunəçilər "Bakcell"in istənilən müştəri xidməti mərkəzi, rəsmi və ya diler mağazasına yaxınlaşmaqla pulsuz 4G SİM kartı və 5 GB həcmində internet trafiki hədiyyə alacaqlar.**

"Bakcell"in 4G şəbəkəsinə keçməklə, abunəçilər ölkənin ən sürətli mobil şəbəkəsindən yararlanacaq və qarşıdan gələn Novruz bayramı günlərində yüksək sürətli Bakcell internetindən PULSUZ faydalanacaqlar.




"Bakcell"in 4G xidməti gündəlik mobil internet istifadəsi üçün daha yüksək sürəti təmin edir. 4G əsasən daha sürətli, rahat və sabit texnologiya deməkdir.

Bakcell şirkətinin qurduğu ən müasir 4G şəbəkəsi abunəçilərə öz smatrfonlarının ən maraqlı funksiyalarından tam şəkildə yararlanmaq imkanı verir. Bu isə o deməkdir ki, sözügedən texnologiya sayəsində Bakcell abunəçiləri 4K kontentini izləmək və yükləmək, onlayn təhsil, konfrans və əyləncə proqramlarına ani giriş əldə etmək, HD keyfiyyətində onlayn video strimlərini izləmək və yüksək sürətli internet tələb edən digər xidmətlərdən istifadə etmək imkanına malikdirlər.

Dünyaca məşhur OOKLA şirkəti üç dəfə ardıcıl olaraq Bakcell şəbəkəsini Azərbaycanın ən sürətli mobil şəbəkəsi adlandırıb.




# Novruz ənənələri - səməni və yumurtaboyama

***12** min ildən artıq yaşı olduğu bilinən, türk xalqlarının milli bayramı - Novruz bizlər üçün yeni il olub yazın gəlişindən xəbər verir. Bu bayramı yamyaşıl səmənisiz və boyanmış yumurtalarsız təsəvvür etmək qeyri-mümkündür. Bəs görəsən, səməni cücərtmək və yumurta boyamaq nəyi simvolizə edir? Bu iki maraqlı ənənənin tarixi, mənası və əhəmiyyəti nədir? Hafta.az əməkdaşı mövzu ilə bağlı araşdırma apardı. Nəticəni sizlərə təqdim edirik. Öncə başlayaq səmənidən. Onu hazırlamaq üçün müxtəlif toxumlardan istifadə etmək olar. Ənənəvi səməni buğdadan hazırlanandır. Bundan başqa, arpa, noxud, mərci və digər dənli bitkilərdən də səməni göyərtmək mümkündür.***

İnanclara görə səməni bolluq-bərəkətin rəmzidir. Bayram vaxtı cücərdilən səməni nə qədər yaşıl və gur olarsa, həmin il bir o qədər məhsuldar keçər. Bundan başqa, ilaxır çərşənbədə qız-gəlinlər niyyət edib, birgə səməni hazırlayarlar. Daha tez və gur cücərən səməni sahibinin arzusunun il ərzində reallaşmasına işarə edilərmiş.

Ümumiyyətlə, səməni ilə bağlı inanc və deyimlər çoxdur, digər bir inanışda o, sağlamlığa, zərifliyə, həttə nəsilartırmaya xidmət edən milli bayram ənənəmizdir.

"Səməni, al məni, hər yazda sən yada sal məni", "Səməni saxla məni, ildə cücərdərəm səni" kimi deyimlər də ona olan rəğbətin təzahürüdür.

Söhbət səmənidən düşdüsə, bayramqabağı küçələrdə addımbaşı rastımıza çıxan səməni satıcılarından bəhs etməsək işimiz yarım olar. Onları çərşənbələr başlayan gündən şəhərdə görmək mümkündür. Bəs görəsən, həmin şəxslər səmənini nə vaxtdan hazırlamağa başlayır? Bir ay ərzində nə qədər səməni cücərdirlər?

Ümumiyyətlə, səməniyə tələbat hansı səviyyədədir? Mövzu ilə bağlı suallarımızı küçədə səməni satışı ilə məşğul olan Şəhla xala cavablandırdı. O deyir ki, satdığı səmənilıri özü hazırlamayıb. "Meyvəli" bazardan kiçik qabda olanların birini 50 qəpikdən, böyükləri isə 1-3 manat arası dəyişən qiymətlərlə topdan şəkildə alıb: "Səməniyə tələbat çox yüksəkdir. Elə təkcə dünən 300 dənəsini satmışam. Bu gün də 45 dənə gətirmişdim, geriyə qalan bu gördüklərinizdir".

■ **Daha sonra, "Keşlə bazarı" adı ilə tanınan, Nərimanov rayonu ərazisində yerləşən bazarda səməni satışı ilə məşğul olan Natiq dayı ilə həmsöhbət olduq.** O deyir ki, səmənilıri çərşənbələr və bayram üçün öncədən ayrı-ayrı vaxtlarda cücərdirlər. "Bu işə fevralın son həftəsindən başlayırıq. Əvvəlcə lazım olan qədər buğdanı islağa qoyuruq. Üstünü də "cuna" ilə örtürük. Saxladığımız yer nisbətən isti olur ki, bir az tez cücərsin. Daha sonra cücərən buğdaların ağarmış hissəsini qabların üstünə düşəcək şəkildə düzürük. Səməni göyərəndə, fikir vermək lazımdır ki, ağarmamış buğdaları qablara düzməyəsən. Yoxsa, səməni seyrək görünər. Əsas məsələ buğda yekunlaşır. Sonra ara-sıra səmənilıri sualamaq kifayət edir. Novruz bayramı - martın 20-21-i üçün səməni 2 həftə öncədən qoyulur". Yeri gəlmişkən bir məqamı diqqətinizə



çatdıraq ki, səməninı zibilliyə atmaq olmaz. Yaxşı olardı ki onu axar suya atasınız.

Səməninin hazırlanması ilə tanış olduqdan sonra, keçid alırıq bayram xonçalarının bəzəyi olan rəngarəng yumurtalara. Bu mövzuda isə yaranmış suallarımızı qida texnoloqu Ağa Salamova ünvanladıq. O, yumurta boyamaq adətinin dəqiq tarixinin olmadığını, Novruz bayramına söykəndiyini bildirdi. Hansı ki bu da yüzilliklər deyil, minilliklərlə ölçülən zaman müddətidir. Yumurta boyanmasına gəldikdə isə, mütəxəssis təəssüf hissi ilə vurğuladı ki, indi sənaye üsulu ilə hazırlanmış kimyəvi boyalara üstünlük verilir: "Bu da yaxşı bir hal deyil. Nəzərə alsaq ki, yumurta təbii qida məhsuludur. Onu da istehlak etdiyimiz üçün, təbii rənglərlə boyanmalıdır".

Müsahibimiz oxucularımıza kimyəvi boyaq məhsullarının əvəzinə, təbii və daha keyfiyyətli bir neçə üsul məsləhət gördü:

"Keçmiş zamanlarda soğan yarpağından, kökün və yaşıl almanın qabığından öz rənglərini, bənövşəyi kələmdən mavini almaq üçün istifadə edirdilər. Təbii yumurta boyası kimi sadalanan vasitələrdən istifadə etmək daha məqsədə uyğun olardı. Qırmızı rəngi almaq üçün çuğundur şirəsi əvəzsizdir".

■ **Daha sonra ekspert hazırda ən populyar yumurta bəzəyi olan plastik lentlərə də münasibət bildirdi. Onun sözlərinə görə, plastik lentlərdən istifadə düzgün deyil:** "Deyə bilərsiniz ki, o, sadəcə qabıqları ilə təmasda olur. Unutmayaq ki, qabıqlarında da məsamələr var. Bu yolla ora müxtəlif kimyəvi maddələr daxil ola bilərlər. Allah bizə təbiətdə bir-birindən gözəl rənglər bəxş edib, ona görə də çalışıb kimyəvi məhsullara üz tutmayaq.

Yumurta əgər təbii rənglərlə boyanırsa, bu zaman onun dadı da, qoxusu da xoşagələn olacaq, nəyinki kimyəvi maddələr ilə... Düşünürəm ki, tənbəlliyin daşını atmaq lazımdır. Bu dəqiqə hər bir məhsulu süniləşdirirlər. Heç olmasa bunu təbii saxlayaq. İldə bir dəfə olan bayramdır. Ona görə də tövsiyə edirəm ki, tək yumurtanı deyil, elə bayram şirniyyatlarını da hər kəs özü hazırlasın. Beləcə, hər bir evdən bayram qoxusu gəlsin".

Sonda hər birinizə xoş əhval-ruhiyyəli, gözəl günlər diləyirik.

Bayramın mübarək Azərbaycan!

✍ Banu

